# ADP Vüqar Məmmədovun həbsini pislədi


# Hürriyyət
SİZİN ÜÇÜN QƏZET

№40 (3379) 4 Noyabr / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymətı: 60 qəpik


ANA XƏBƏR



## Ramiz Mehdiyevin köməkçisi həbs olundu

# "Vüqar Məmmədovun həbsi haqqın cəzalandırılmasıdır"

"Hürriyyət"in baş redaktorunun ailə üzvləri Prezidentə müraciət etdi




GÜNÜN NƏBZİ

Layihə

## Azərbaycanın inkişaf strategiyası



Prezident AMEA-dakı çıxışında niyə dövlət strukturlarını alimlərlə daha sıx işləməyə çağırdı... 8

Baxış

## Ramiz Mehdiyev onun adını eşidəndə etiraz etdi

Misir Mərdanovdan Həsən Həsənovla və siyasi gündəmlə bağlı sensasion yazı 11

Region

## Putin 97 yaşına qədər hakimiyyətdə qalmaq istəyir

Qərb mediası: "Rusiya prezidenti hakimiyyəti oğlu İvana təhvil vermək fikrindədir" 7

Siyasət

## Tramp Ukraynanı Putinin "caynağına" verir

ABŞ prezidenti: "Onların döyüşməsinə imkan vermək lazımdır" 9

Şikayət

## Xaçmaz sakinindən nazir Anar Əliyevə müraciət

Balamirzə Mikayılov hərbi xidmət zamanı minaya düşən oğluna 3-cü qrup əlillik verilməsinə etiraz edir 10

Təhlil

## Qiymət inflyasiyası: Ali təhsildə görünməz, amma dərin problem



6

Müsahibə

## "Asılılıq düşüncə xəstəliyidir"



Ramin Allahverdiyev: "Biz pozitiv düşüncəni neqativ düşüncənin yerinə qoymağa dəstək olmalıyıq" 5

Ölkə

## "Guya mən hansısa sənədə imza atmışam..."

İmşili sakinini özünün xəbəri olmadan arvadından boşayıblar...

İmişli rayonu, Cəfərli kənd sakini Əliyev İsmayıl Abdulla oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. İ.Əliyev Ədliyyə Nazirliyinin İcra və Probasiya Şöbəsindən şikayətçidir: "Mən, Əliyev İsmayıl Abdulla oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız. Bildirim ki, şikayətim İmişli rayonu İcra və Probasiya şöbəsinin icra məmuru Ramil Paşayevdəndir... 12

Cəmiyyət

## Qaradağ İcra Hakimiyyətində əməliyyat

Müavin və daha iki vəzifəli həbs edildi; Baş prokurorluq saxlanılan şəxslərlə bağlı məlumat yaydı

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Qaradağ Rayon İcra Hakimiyyətində yoxlamalar aparıb. Hurriyyet.az xəbər verir ki, yoxlamalar nəticəsində ilk olaraq rayonun icra başçısının müavini Muradov Nadir Yədulla oğlu və böyük məsləhətçi (memar) Qafar Abdullayev həbs edilib. Məhkəmə N.Muradov barəsində 4 aylıq həbs-qətimkan tədbiri qərarı verib. 4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№40 (3379) 4 Noyabr / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymıəti: 60 qəpik

# Lukaşenko özünə Putinin qonşuluğunda yer edir...

## Ukrayna prezidenti üçün Soçidə "pensioner rezidensiyası" tikilir



Rusiya Prezidenti Vladimir Putinin Soçidəki "Boçarov Ruçey" iqamətgahı və Qırmızı Polyanadakı dağ xizək kurortu yaxınlığında, əvvəllər rəsmi şəkildə Belarusa məxsus olan torpaq sahəsində, lüks istirahət kompleksi inşa olunur.

Azpolitiko.info xəbər verir ki, bu barədə məlumatı "Belarus Araşdırma Mərkəzi" (BRC) jurnalistləri yayıb. Onların dron vasitəsilə çəkdiyi görüntülərdə böyük kotteclərin, infrastruktur obyektlərinin və ərazini əhatə edən mühafizə hasarının inşası görünür. Araşdırma müəllifləri hesab edirlər ki, bu obyekt sadəcə mehmanxana deyil.

Jurnalistlərin məlumatına görə, tikintinin maliyyə mənbəyi Belarus Prezidenti Aleksandr Lukaşenkonun yaxın ətrafı ilə bağlı şirkətlərdir. Versiyalardan biri budur ki, bu kompleks Lukaşenkonun gələcəkdə istifadə edəcəyi "pensioner rezidensiyası" ola bilər.

Bu araşdırma "Radio Svoboda"nın Belarus xidməti, BRC, "Əmək Hərəkatı", "BelPol", "Vajnıe Istorii", "Slidstvo.Info" və OCCRP təşkilatlarının birgə əməkdaşlığı ilə, həmçinin ukraynalı KibOrg və belaruslu "Kiberpartizanlar" qruplarının texniki dəstəyi ilə hazırlanıb.

Tikinti sahəsi Qırmızı Polyanada 10 hektar ərazini əhatə edir və qorunan təbiət zonasına bitişikdir. Qaldırılan evlər ərazidəki digər elit yaşayış məntəqələrindən daha hündürdə yerləşir. Bura həm də tarixi və arxeoloji baxımdan əhəmiyyətli bir yerdir - yaxınlıqda eramızdan əvvəl III-II əsrlərə aid kurqanlar və daş qəbirlər var.

"Radio Svoboda"nın əldə etdiyi peyk şəkilləri göstərir ki, ərazi 2022-ci ilin yayında tikinti üçün təmizlənməyə başlanıb. 4 iyul 2022-ci il tarixli görüntülərdə ilk meşə qırıntısı qeydə alınıb. İşlər həmin ilin payızına qədər davam edib. 2023-cü ilin mayında tikinti daha geniş miqyasda yenidən başlanıb və meşə tam şəkildə məhv edilib. 2024-cü ilin mayında ilk bünövrələr qoyulub, həmin ilin payızında isə artıq 11 müxtəlif obyektin inşası aparılırdı.

BRC jurnalistləri dronla iki dəfə çəkiliş aparıblar - 2025-ci ilin iyul və oktyabr aylarında. Şəkillərdə görünür ki, işlər fasiləsiz davam edir: artıq dörd kottec tikilib. Onlardan üçü xaricdən demək olar ki, hazır görünsə də, hələ pəncərələr və qapılar yoxdur.

Dördüncü, ən böyük üçmərtəbəli kottec təpənin üstündə yerləşir və oradan həm kurorta, həm də dağ silsilələrinə baxış açılır.

Rəsmi sənədlərdə ərazidə 31 VIP nömrəli mehmanxana kompleksi tikildiyi bildirilir. Tikinti işlərini Rusiyanın "Kompleks-İnvest" MMC-si həyata keçirir və layihənin 2025-ci ilin sonuna qədər tamamlanması planlaşdırılıb.

Sənədlərə əsasən, bu "mehmanxana kompleksi" aşağıdakı obyektləri əhatə edəcək: əsas bina, üç VIP-kottec, restoranlı otel, manqallı istirahət pavilyonu, beş mikroavtobus və beş minik avtomobili üçün qaraj, sürücülər üçün istirahət otaqları və digər yardımçı tikililər.

Layihə sənədlərinə əsasən, əsas binanın ümumi sahəsi 3000 kvadratmetrdir. O binada aşağıdakılar nəzərdə tutulub: hovuz, sauna, fitnes zalı, barlı istirahət zonası, kinoteatr, royalı zal, iki qonaq otağı və bir əsas yataq otağı, xizək avadanlıqlarını saxlamaq üçün yer, böyük iş kabineti.

Layihədə həmçinin fiziki məhdudiyyətli şəxslər üçün uyğun şərait də nəzərdə tutulub. Lukaşenkonun hazırda 71 yaşı olduğu, obyektin isə tamamlamaq üçün bir neçə il tələb olunacağı qeyd olunur.

Üç əlavə kottec hər biri 700 kvadratmetr sahəyə malikdir. Hər evdə ayrıca hovuz, sauna, yemək otağı və dörd yataq otağı olacaq. Maraqlıdır ki, bu evlərin sayı Lukaşenkonun övladlarının sayı ilə üst-üstə düşür - Viktor, Dmitri və Nikolay.

Dizayn mütəxəssisi Pavel Radçenko kompleksin "şale" üslubunda tikildiyini və "burada qənaət anlayışının olmadığını" bildirir. Məsələn, əsas binanın foyesində 7 metrlik tavan hündürlüyü var. Tikinti sənədlərində göstərilən texniki xüsusiyyətlər də obyektin yüksək təhlükəsizlik səviyyəsinə malik olduğunu göstərir.

Planlara əsasən, 2,5 metr hündürlüyündə partlayışa davamlı dəmir hasar, ərazidə altı mühafizə postu, silah otağı, dronların neytrallaşdırılması sistemi, metal və rentgen detektorları, termovizorlar və hətta radiasiya nəzarəti və nüvə materiallarının avtomatik aşkarlanması sistemləri olacaq.

Keçmiş təhlükəsizlik əməkdaşlarının fikrincə, bu obyekt "adi varlılar üçün deyil", ya hökumət başçısı, ya da prezident səviyyəsində şəxslər üçün nəzərdə tutulub.

Araşdırmaya görə, Lukaşenko 2021-ci ildə №157rp-dsp saylı gizli sərəncam imzalayaraq Belarusa məxsus torpaq sahəsini "Kompleks-İnvest" adlı rus şirkətinə 13 milyon dollara satmağı tapşırıb. Yarım ildən sonra qiymət iki dəfə azaldılıb - 6,4 milyon dollara. Bu isə torpağın bazar dəyərindən 20 dəfə ucuz olması deməkdir. Ekspertiza sonradan həmin torpağın əsl dəyərinin 131 milyon dollar olduğunu müəyyən edib.

"Kompleks-İnvest"in ilkin sahibi, belaruslu iş adamı Vladimir Yaprinsevin həyat yoldaşının bacısı Yelena Bortseva olub. Yaprinsev Lukaşenkonun uzun illərdir tanıdığı iş ortağı, milyarder Yuri Çijlə də əlaqəlidir. Çij Belarusda vergi pozuntularına görə 2016-cı ildə həbs edilmişdi. 2024-cü ilin fevralında "Kompleks-İnvest" şirkətinin yeni sahibi Lukaşenkonun keçmiş mühafizəçisi Aleksandr Romanovski olub.

Şirkət Rusiya daxilində kommersiya fəaliyyəti göstərməyib. 2023-cü ilin iyulunda şirkətin direktoru Aleksey Prudnikov Moskvada vergi orqanlarında dindirilib və "fəaliyyəti kreditlərlə maliyyələşdirdiklərini" bildirib.

Hazırda "Kompleks-İnvest" tikintiyə ən azı 19,5 milyon dollar xərcləyib. Jurnalistlərin bütün sorğularına və müraciətlərinə baxmayaraq, heç bir cavab verilməyib.



Əyləncə səhifəsi

# Məşhur "qanuni oğru" həbsxanada öldü



**Kriminal dairələrdə Kaxa Zuqdidiski kimi daha çox tanınan 63 yaşlı gürcü "qanuni oğru" Kaxaber Alşibaya Fransanın Renn şəhərindəki (Bretan) həbsxanada vəfat edib.**

Lent.az-ın xarici mediaya istinadla xəbərinə görə, Kaxanın ölüm səbəbi həbsxanada diaqnoz qoyulan ağciyər xərçəngi olub.

Kaxa Zuqdidiski ziyalı ailəsində doğulub, lakin o və iki qardaşı cinayətkar olublar. Kaxanın qardaşlarından biri 1993-cü ildə Gürcüstanın qərbindəki Zuqdidi şəhərində çay fabrikinin yaxınlığında dörd şəriki ilə birlikdə öldürülüb.

Kaxa Moskva və Leninqradda oğurluğa görə üç dəfə məhkum edilib. Batumidən olan "qanuni oğru" Zuri Tsintsadzenin anadan olmasının 50 illiyi münasibətilə keçirilən toplantıda o, Koça Cinçaradze (Kurşa), Karlo Çxikvadze və Çiro Şoniya ilə görüşüb.

Kaxa Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin repressiyalarından çox əvvəl Fransaya köçən ilk gürcülərdən biridir və orada "oğru işini" davam etdirib və müntəzəm olaraq həbsxanaya düşüb. Kaxa sonuncu dəfə 2021-ci ilin fevral ayında gürcü cinayətkarlarına qarşı genişmiqyaslı Avropol əməliyyatı zamanı həbs olunub.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# 800 minlik mənimsəmə...

## Samirə Zeynalova 8 il müddətə azadlıqdan məhrum edildi

**"Rifah Group" MMC-nin 802 min manatdan artıq vəsaitini mənimsəməkdə təqsirləndirilən həmin şirkətin sabiq baş mühasibi Samirə Zeynalova 8 il müddətə azadlıqdan məhrum edilib.**

Bu barədə hökm Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə elan olunub.

Belə ki, ona elan edilmiş Cinayət Məcəlləsinin 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə etmək, ağır nəticələrə səbəb olduqda) maddəsi ümumi ittihamdan xaric edilib.

Cinayət Məcəlləsinin 313-cü maddəsi üzrə cəlb etmə müddəti keçdiyi üçün həmin maddə üzrə Samirə Zeynalovaya cəza təyin olunmayıb.

İttihama görə, Samirə Zeynalova "Rifah Group" MMC-nin baş mühasibi işlədiyi 2022-2023-cü illərdə qohumlarından aldığı etibarnamələrdən onlardan xəbərsiz istifadə edərək həmin şəxslərin adına bank hesabları açıb və sözügedən MMC-yə məxsus 802 min 429 manat pulu onların hesablara köçürərək mənimsəyib.

Samirə Zeynalovaya qarşı Cinayət Məcəlləsinin 179.4-cü (Mənimsəmə və ya israf etmə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə etmək, ağır nəticələrə səbəb olduqda) və 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb.

# Oğurladığı pullarla səyahətə çıxdı...

**Qax rayonunda yerləşən iki evdən oğurluq edilib. Bu barədə DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan bildirilib. Qeyd edilib ki, axşam saatlarında evlərə daxil olan naməlum şəxs 100 min manata yaxın pul və 25 min manat dəyərində qızıl-zinət əşyalarını talayaraq ələ keçirib.**



Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə cinayət əməlini törətməkdə şübhəli bilinən, əvvəllər də oğurluğa görə dəfələrlə məhkum edilmiş 32 yaşlı Elçin Rəşidov saxlanılıb.

O, oğurladığı maddi vəsaitlə xarici ölkələrə istirahətə getdiyini, qızıl-zinət əşyalarını isə lombarda girov qoyaraq əvəzində pul götürdüyünü bildirib.

Araşdırmalarla E.Rəşidovun paytaxtın Binəqədi rayonunda da oğurluq etdiyi müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# ADP Vüqar Məmmədovun həbsini pislədi

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə ötən həftə "Hürriyyət" qəzetinin baş redaktoru, eyniadlı internet televiziyasının sahibi və ADP Ali Məclisinin üzvü Vüqar Məmmədovun Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs olunmasını müzakirə edib.**




Müzakirələrdə Vüqar Məmmədovun həbsi qətiyyətlə pislənilib, ona qarşı irəli sürülən ittihamların inandırıcı olmadığı, bu həbsin Vüqar Məmmədovun ictimai-siyasi və jurnalist fəaliyyəti ilə bağlı olduğu qeyd edilib. İdarə Heyəti ADP Ali Məclisinin üzvü Vüqar Məmmədovun səhhəti ilə bağlı barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsinin, istintaqının şəffaf keçirilməsinin, effektiv müdafiə hüququnun ölkə Konstitusiyasına, qanunlarına uyğun qaydada təmin olunmasının və hüquqlarının qorunmasına süni manelər yaradılmamasının vacibliyini bildirib.

İdarə Heyəti son zamanlar Ermənistanda və Gürcüstanda daxili vəziyyətin gərginləşməsi ətrafında da müzakirə aparıb. Müzakirələrdə qeyd edilib ki, baş verən hadisələrin əsas səbəbi Cənubi Qafqaz respublikalarının Rusiya ilə Qərb arasında seçim etmələri ilə bağlıdır. Bu baxımdan, indiki həssas dönəmdə Azərbaycanda daxili sabitliyin qorunması və vətəndaş həmrəyliyinə nail olunması istiqamətində ciddi addımlar atılmasının vacibliyi vurğulanıb. Eyni zamanda qeyd edilib ki, ölkədə məmur özbaşınalığının qarşısı alınmalı, vətəndaşların sosial-iqtisadi vəziyyəti yaxşılaşdırılmalıdır ki, xarici qüvvələr bu tipli hallardan sui-istifadə edərək, ölkədə bu və ya başqa şəkildə siyasət yürütməyə çalışmasın.

Müzakirələrdə Qərb və Avropa ilə əməkdaşlığının milli maraqlarımıza uyğun olduğu bir daha qeyd edilib.

İdarə Heyəti ölkə başçısı İlham Əliyevin Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışı zamanı ölkədə elmin dəstəklənməsi, alimlərin ictimai-siyasi həyatda aktiv iştirak etməsi və Azərbaycan dilinin qorunması ilə bağlı açıqlamalarını təqdir edib. Hesab edilib ki, ölkədə xüsusilə dövlət məmurları arasında rus dilindən istifadəyə və işə götürmə zamanı rus dilini bilmək tələbinin qoyulmasına son qoyulmalıdır.

Toplantı iştirakçıları ötən həftə İngiltərə və Azərbaycan Müdafiə nazirlikləri arasında qarşıdakı illər ərzində ikitərəfli əməkdaşlıq planının imzalanmasına da münasibət bildirib. Bu hadisənin Azərbaycanın Qərbə inteqrasiyası, ölkəmizin hərbi qüdrətinin və milli təhlükəsizliyinin gücləndirilməsi baxımından əhəmiyyətli olduğu bildirilib.

İdarə Heyəti Azərbaycan hərbçilərinin Qəzza bölgəsində sülhməramlı missiyanın tərkibində iştirak etməsi ilə bağlı təşəbbüslərə bir daha münasibət açıqlayıb. Qeyd edilib ki, Azərbaycan hərbçilərinin Qəzzada sülhməramlı missiyada iştirakı yalnız beynəlxalq hüquqa uyğun şəkildə həyata keçirilməsi məqsədəmüvafiqdir, ən vacibi isə bu məsələdə Türkiyənin mövqeyi nəzərə alınmalıdır.

İdarə Heyəti ötən həftə Balakən rayon icra başçısının vəzifə cinayətlərinə görə həbs olunmasını da müzakirə edib. Müzakirələrdə bu tipli həbslərin ölkədə mövcud olan problemlərin həllinə gətirib çıxarmayacağı qeyd edilib. Hesab edilib ki, azad mətbuatda dövlət məmurlarının yaritmaz fəaliyyəti və özbaşınalıqları ilə bağlı məlumatlar hüquq-mühafizə orqanları tərəfindən diqqətə alınmalı, icra hakimiyyətlərinin fəaliyyəti üzərində ciddi ictimai nəzarət olmalıdır. Qeyd edilib ki, bu həbslər büdcədən regionların inkişafına ayrılan böyük vəsaitlərin yerli icra hakimiyyətləri tərəfindən korrupsiya yolu ilə talandığını göstərir və nəticə etibarı ilə əhali arasında böyük narazılıqlar və sosial gərginliklər yaradır. Dövlət vəsaitlərinin məmurlar tərəfindən mənimsənilməsi ilə bağlı kütləvi faktların ölkədə ağır siyasi nəticələrə gətirib çıxara biləcəyi nəzərə alınaraq, bu neqativ tendensiyanın qarşısının alınması üçün ölkədə köklü siyasi və iqtisadi islahatların həyata keçirilməsini zəruri edib.

Toplantının sonunda cari məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

**KƏNAN**

# Ramiz Mehdiyevin köməkçisi həbs olundu

**AMEA katibliyinin keçmiş rəisi, Ramiz Mehdiyevin köməkçisi vəzifəsində çalışan Eldar Əmirov həbs olunub. Hurriyyet.az xəbər verir ki, bununla bağlı məhkəmə qərar verib.**





Səbail Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Axar.az xəbər verir ki, bu, E.Əmirovun həbsi haqda ilk məlumat deyil: "Hələ 14 fevral 2022-ci ildə - Ramiz Mehdiyev AMEA-nın prezidenti vəzifəsindən çıxarılan gün onun saxlanıldığı xəbəri yayılmışdı. Bildirilirdi ki, AMEA Prezidenti katibliyinin rəisi, siyasi elmlər doktoru Eldar Qurban oğlu Əmirov hüquq-mühafizə orqanlarının həyata keçirdiyi əməliyyat zamanı tutulub".

Bəs, bu Eldar Əmirov kimdir ki, vaxtaşırı gündəmə gəlir?

Saytən məlumatına görə, 40 yaşlı Eldar Əmirov Ramiz Mehdiyevin baldızı oğludur: "E.Əmirov Ramiz Mehdiyevin AMEA-dakı "sağ əli" olduğu iddia edilir, faktiki olaraq AMEA-da Mehdiyevin iradəsinin ifadəçisi rolunu oynayıb".

Milli.az isə xəbər verir ki, Eldar Əmirov siyasi elmlər dokdoturudur və Ramiz Mehdiyevin AMEA-ya rəhbərliyi dövründə AMEA katibliyinin rəisi vəzifəsində çalışıb. Bu vəzifə isə Ramiz Mehdiyev AMEA prezidenti olduqdan sonra yaradılıb və ilk təyin olunan da Eldar Əmirov olub:

"Hələ 2022-ci ildə E.Əmirov barəsində çoxsaylı şikayətlər olduğuna görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən tutulub. Nərimanov rayon məhkəməsinin qərarı ilə Eldar Əmirov barəsində 30 sutka həbs qərarı verilmişdi. Onun barəsində şikayətlər isə işədüzəltmə adı altında pul yığması ilə bağlı olub.

Eldar Əmirovun Ramiz Mehdiyevin baldızı oğlu olduğu da iddia olunurdu, lakin bu iddia sonradan təsdiqini tapmadı".

Xatırladaq ki, E.Əmirov R.Mehdiyevin Prezident Administrasiyasının rəhbəri olduğu son vaxtlara kimi onun köməkçisi qismində fəaliyyət göstərib.

**KƏNAN**

# "Vüqar Məmmədovun həbsi haqqın cəzalandırılmasıdır"

## "Hürriyyət"in baş redaktorunun ailə üzvləri Prezidentə müraciət etdi

**"Hürriyyət" qəzetinin və "Hurriyyet TV"-nin baş redaktoru Vüqar Məmmədovun (Tofiqoğlu) qanunsuz həbsi ilə bağlı ailə üzvləri Prezident İlham Əliyevə müraciət edib. "Hürriyyət" həmin müraciəti olduğu kimi dərc edir:**

"Hörmətli Prezident!

Biz, Vüqar Tofoq oğlu Məmmədovun ailə üzvləri olaraq, Sizə bu müraciəti həm bir ailənin ağrısını, həm də ədalətə inanan vətəndaşların səsi kimi çatdırırıq. Məqsədimiz bir insanla bərabər, ədalətin özünün azadlığı uğrunda sizə müraciət etməkdir.

**Cənab Prezident!**

29 oktyabr 2025 -ci il tarixində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılan Vüqar Məmmədov əvvəlcə "sosial problemləri qabartmaqla xalqı narazı salmaq və dövlət orqanlarını gözdən salmaq" kimi əsassız ittihamla tutulmuş, daha sonra isə tamamilə fərqli bir maddə - "hədələməklə tələb etmə" (Cinayət Məcəlləsinin 182.2.4 maddəsi) ilə məsuliyyətə cəlb edilmişdir. İlkin ittihamla sonrakı hüquqi əsaslar arasındakı ziddiyət bu işdə obyektivlik və ədalət prinsipinin pozulmasını ciddi şəkildə gündəmə gətirir.

Bu gün Vüqar Məmmədovun ailəsi olaraq, biz, qanunun adından ədalətsizliyə şahidlik edirik. Vüqar Məmmədovun həbsi sadəcə bir cinayət işinin deyil, vicdanın və haqqın sınağına çevrilib.

**Hörmətli Prezident!**

Son vaxtlar dövlətimizin daxilindəki xəyanətkar şəbəkənin və nəhəng korrupsiyaya bulaşmış məmurların ifşası istiqamətində verdiyiniz göstəriş çərçivəsində, vətənə xəyanət və dövlət büdcəsindən milyonları mənimsəyən yarıtmaz məmurların məsuliyyətə cəlb olunması xalq tərəfindən ədalətin təntənəsi kimi qarşılanır. Lakin həmin şəxslərin barəsində çıxarılan ev dustaqlığı qərarı ilə müqayisədə, ədalət və dövlətçiliyə xidmət istiqamətində əsl vətəndaş mövqeyi nümayiş etdirən Vüqar Məmmədovun barəsində 3 ay 13 gün həbs qətimkan tədbirinin seçilməsi təkcə Vüqar Məmmədovun deyil, qanunun, ədalətin və vətəndaş mövqeyinin həbsi kimi qiymətləndirilməkdədir.

**Cənab Prezident!**

Vüqar Məmmədov saxlanıldığı gündən bu günədək ailəsi ilə görüşmək və əlaqə saxlamaq hüququndan qanunsuz olaraq məhrum edilib. Halbuki, o, ağır ürək və yüksək qan təzyiqi xəstəsidir, daimi olaraq



### "Onun həbsi sadəcə bir cinayət işinin deyil, vicdanın və haqqın sınağına çevrilib"

tibbi nəzarətə ehtiyacı var.

31 oktyabr 2025-ci ildə Səbael Rayon Məhkəməsində keçirilən proses zamanı anidən halı pisləşmiş Vüqar Məmmədova tibbi yardımın göstərilməməsi yalnız hüquqi deyil, insani baxımdan da qəbuledilməzdir. Bu, Konstitusiyanın şəxsi toxunulmazlıq, sağlamlıq hüququna dair müddəalarının, eləcə də Cinayət Prosessual Məcəlləsinin açıq şəkildə pozulmasıdır.

Ədalət mühakiməsi qarşısında müdafiəsini təmin etmək iqtidarında olmayan, tibbi yardıma ehtiyacı olan birinə ittiham irəli sürərək məsuliyyətə cəlb edən məhkəmənin qərarı qərəzli, ədalətsiz və qanunsuzdur. Belə bir hal baş verdiyi şəraitdə isə məhkəmələrin qanunazidd, ədalət prinsipindən uzaq mühakimə irəli sürməsini düşünməmək mümkün deyil.

**Hörmətli Prezident!**

Vüqar Məmmədov ictimai fəal kimi Sizin şəffaflıq, məsuliyyət və ictimai nəzarət çağırışlarınızı rəhbər tutmuşdur. O, dövlətə qarşı yox, ədalətsizliyə, məmur özbaşınalığına qarşı dayanmışdır. Bu gün onun həbsdə olması haqqın cəzalandırılması, sükutun və haqsızlığın mükafatlandırılması kimi görünür. Halbuki, Vüqar Məmmədovun yeganə "günahı" cəmiyyətin problemlərini dilə gətirmək, haqq və ədalətə, dövlətə sadiq qalmaqdır.

**Cənab Prezident!**

Biz inamla deyirik: Vüqar Məmmədov heç bir qanunsuz fəaliyyətlə məşğul olmayıb. Əksinə, o, dövlətə sədaqətlə xidmət edən, Vətənini sevən, dövlətinə bağlı vətəndaşdır. Onun həbsi, dövlətin şəffaflıq və ədalət prinsipinə inanan minlərlə insanın inamına kölgə salır.

Bu baxımdan, Sizdən xahiş edirik ki, Vüqar Məmmədovun saxlanılması və barəsində seçilmiş həbs qətimkan tədbirinin qanuniliyinin şəxsən Sizin nəzarətiniz altında araşdırılmasına göstəriş verəsiniz. Əgər bu işdə hər hansı qərəz, sifariş və ya hüquqazidd hal mövcuddursa, onun dərhal aradan qaldırılmasını təmin edəsiniz.

Biz inanırıq ki, Sizin ədalətiniz - bir ailənin ümidini, bir insanın azadlığını və bir millətin inamını geri qaytara bilər.

Bu müraciəti Sizə sadəcə Vüqar Məmmədovun ailəsi kimi deyil, haqqa, ədalətə inanan vətəndaşlar kimi ünvanlayırıq.

Hörmət və ümidllə Vüqar Məmmədovun ailə üzvləri".

**"Hürriyyət"**



# Vüqar Məmmədova yeni vəkil tutuldu

## Dünən Səbail məhkəməsinin qərarından apellyasiya şikayəti verilib

**"Hürriyyət" qəzeti və "Hürriyyət TV"nin baş redaktoru Vüqar Məmmədova yeni vəkil tutulub. Hurriyyet.az xəbər verir ki, bu barədə onun qardaşı Cəsur Məmmədov məlumat verib.**

O bildirib ki, Vüqar Məmmədovun hüquqlarını vəkil Aqil Layıc müdafiə edəcək: "Biz vəkil Aqil Layıcla müqavilə bağlamışıq".

C.Məmmədovun sözlərinə görə, vəkil bu gün (dünən - red.) "Hürriyyət"in baş redaktorunun həbsi ilə bağlı apelliyasiya şikayəti verəcək.

Qeyd edək ki, həbs qətimkan tədbiri seçilən məhkəmə prosesində V.Məmmədovun hüquqlarını dövlətin ayırdığı vəkil Leyla İsgəndərova qoruyub.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) oktyabrın 29-da "Hürriyyət" qəzeti və "Hürriyyət TV"nin ofisində əməliyyat keçirib və Vüqar Məmmədovu saxlayıb. Səbail Rayon Məhkəməsi oktyabrın 31-də onun barəsində 3 ay 13 gün müddətinə həbs qətimkan tədbiri seçib. Baş redaktora qarşı Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsi ilə ittiham verilib.

**KƏNAN**

# Baş redaktor ailəsi ilə danışıb

## Vüqar Məmmədov DTX-da həkim müayinəsindən keçdiyini bildirib

**Oktyabrın 29-da Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyatla saxlanılan, oktyabrın 31-də Səbail Rayon Məhkəməsində barəsində həbs qətimkan tədbiri seçilən "Hürriyyət" qəzeti və "Hürriyyət TV"nin baş redaktoru Vüqar Məmmədov (Tofiqoğlu) dünən axşam saatlarında ailəsi ilə danışıb.**

Hurriyyet.az xəbər verir ki, hazırda DTX təcridxanasında saxlanılan V.Məmmədov telefon danışığı zamanı sağlığı durumu ilə bağlı ciddi narahatçılığının olmadığını, həkim müayinəsindən keçdiyini və zəruri tibbi dəstək göstərildiyini bildirib.

Xatırladaq ki, oktyabrın 31-də Səbail Rayon Məhkəməsində keçirilən proses zamanı Vüqar Məmmədovun səhhətində problem yaranıb. Belə ki, məhkəmədə qan təzyiqi yüksələn və kəskin ürək bulantıları keçirən baş redaktora heç bir tibbi yardım göstərilməyib.

Məhkəmədə səhhətinin kəskin pisləşməsi səbəbindən ailə üzvləri, yaxınları, eləcə də "Hürriyyət"in kollektivi günlərdir Vüqar Məmmədovun taleyindən narahat idi.

**KƏNAN**

# İcra başçısı həbs edilmiş müavini ilə Lənkəranda da birgə işləyib

**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin bir qrup məmurla birgə həbs etdiyi Qaradağ RİH başçısının müavini Nadir Muradov daha əvvəl Lənkəranda bu vəzifəni tutubmuş.**



Hurriyyet.az xəbər verir ki, Qaradağ RİH-nin hazırkı başçısı Süleyman Mikayılov Lənkərana başçılıq edəndə də N.Muradovla birlikdə işləyib.

Belə ki, N.Muradov əvvəllər Lənkəran ŞİH Aparatında Ərazi və idarəetmə şöbəsinin müdiri vəzifəsində çalışıb. Daha sonra o, sabiq başçının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini işləyib.

Süleyman Mikayılov Qaradağ Rayon İcra Hakimiyyəti başçısı təyin edildikdən sonra N.Muradovu da Bakıya gətirib. Onu ilk öncə Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri, daha sonra isə icra başçısının müavini təyin edib. Nadir Muradov 10 ilə yaxın müddətdə Süleyman Mikayılovun müavini vəzifəsini tutub.

Qeyd edək ki, Nadir Muradovla yanaşı Qaradağ RİH başçısının aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsini icra edən Qafar Abdullayev, RİH-nin digər əməkdaşları Rəşad Nadirli, İsa Şəmsəliyev və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin rəis müavini Zülfüqar Mansurov da məsuliyyətə cəlb edilib. Toplanmış ilkin sübutlar əsasında Nadir Muradov, Qafar Abdullayev, Rəşad Nadirli, İsa Şəmsəliyev və Zülfüqar Mansurova müvafiq olaraq Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrarən və külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib.

Təqsirləndirilən şəxslər - Nadir Muradov, Qafar Abdullayev və Zülfüqar Mansurovun barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs, İsa Şəmsəliyev və Rəşad Nadirli barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.



# Qaradağ İcra Hakimiyyətində əməliyyat

**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Qaradağ Rayon İcra Hakimiyyətində yoxlamalar aparıb. Hurriyyet.az xəbər verir ki, yoxlamalar nəticəsində ilk olaraq rayonun icra başçısının müavini Muradov Nadir Yədulla oğlu və böyük məsləhətçi (memar) Qafar Abdullayev həbs edilib.**

Məhkəmə N.Muradov barəsində 4 aylıq həbs-qətimkan tədbiri qərarı verib.

Daha sonra Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət Əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin rəis müavini işləyən Mansurov Zülfüqar Hüseynbala oğlu saxlanılıb. O, təkrar külli miqdarda rüşvət almaqda ittiham olunub.

Binəqədi Rayon Məhkəməsinin qərarı ilə Rayon təsərrüfatı şöbəsinin baş məsləhətçisi Qafar Abdullayev, Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət Əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin rəis müavini Zülfüqar Mansurov barəsində məhkəmənin qərarı ilə 3 ay 28 gün müddətə həbs qətimkan tədbiri seçilib. Həmin şəxslər rüşvət almaqda ittiham olunur.

## Baş prokurorluqdan açıqlama

"Qaradağ Rayon İcra Hakimiyyəti və Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib".

Hurriyyet.az xəbər verir ki, bu barədə dünən Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, rüşvət müqabilində torpaq üzərində mülkiyyət hüququnu rəsmiləşdirməkdə təqsirləndirilən vəzifəli şəxslər həbs edilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Bakı Şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Nadir Muradov və digər vəzifəli şəxslərin qanunsuz hərəkətləri ilə bağlı keçirilmiş əməliyyat tədbirləri nəticəsində cinayət işi başlanıb.

İstintaq və əməliyyat-axtarış tədbirləri ilə Nadir Muradovun qeyd edilən vəzifədə işləməklə Qaradağ Rayon İcra Hakimiyyəti başçısının aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsini icra edən Qafar Abdullayev, həmin rayon icra hakimiyyətinin əməkdaşları Rəşad Nadirli, İsa Şəmsəliyev və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin rəis müavini Zülfüqar Mansurovla cinayət əlaqəsinə girməklə Bakı şəhəri Qaradağ rayonu ərazisində yerləşən torpaq sahələri ilə bağlı ilkin rəsmiləşdirmə işlərinin aparılması və sonradan torpaq sahələri üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınmasının təmin edilməsi üçün ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə rüşvət almalarına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Nadir Muradov, Qafar Abdullayev, Rəşad Nadirli, İsa Şəmsəliyev və Zülfüqar Mansurova müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrarən və külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib.

Təqsdirləndirilən şəxslər Nadir Muradov, Qafar Abdullayev və Zülfüqar Mansurovun barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs, İsa Şəmsəliyev və Rəşad Nadirli barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə istintaq və əməliyyat-əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## "İcra başçısı vəzifəsindən azad edilməlidir"

Qeyd edək ki, icra başçısının müavini, eləcə də müvafiq şöbələrin əməkdaşları saxlanıldığı halda, Süleyman Mikayılovun kənarda qalması müzakirə doğuran suallar yaradıb. Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Arzuxan Əlizadə bildirib ki, cinayət əməlində əli olmasa da, mənəvi məsuliyyət daşıdığına görə icra başçısı vəzifəsindən azad edilməlidir:

"Müavini qanunazidd əməllər törədib və çox ciddi ittihamlarla həbs olunubsa, təbii ki, burada icra başçısı da məsuliyyət daşıyır. İstintaq orqanı icra başçısının cinayət əməlində işbirliyini aşkarlasa və ən azı bu barədə xəbərinin olduğu bilinsə, onda o da məsuliyyətə cəlb ediləcək. O da ola bilər ki, müavin başçıdan kənar fəaliyyət göstərərək qanunazidd əməl törədib, rüşvət alıb və ya hər hansı bir cinayət əməli işləyib, başçının xəbəri yoxdur. Lakin başçının xəbərinin olmaması da onu məsuliyyətdən azad etmir. Ən azından tutduğu vəzifəyə uyğunsuzluq var. Təbii ki, o, vəzifəsindən çıxarılmalıdır. Çünki həmin quruma rəhbərlik ona tapşırılıb. Onun rəhbərlik etdiyi kollektivdə qanunazidd, cinayət əməlləri baş verirsə, icra başçısı ən azı mənəvi məsuliyyət daşıyır. Həmin məsuliyyətə görə tutduğu vəzifəyə uyğunsuz olduğundan o da vəzifəsindən kənarlaşdırılmalıdır".

**KƏNAN**

# “Asılılıq düşüncə xəstəliyidir”



## Ramin Allahverdiyev: “Biz pozitiv düşüncəni neqativ düşüncənin yerinə qoymağa dəstək olmalıyıq”

“Tədqiqatlar onu göstərir ki, istifadəçi ilə paralel, valideynlə də iş aparmaq lazımdır”

Sentyabrın 17-də Prezidentin sərəncamı ilə təsdiq olunan “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nın son 5 il ərzində bu sahədə aparılan mübarizəyə yeni nəfəs gətirəcəyinə ümid verir. Proqramda vurğulanan əsas nünaslardan biri də peşəkar həkim-narkoloqların hazırlığı məsələsidir. Bəs, bu faktor mübarizənin effektində nə qədər rol oynayır, daha nələrə diqqət yetirilməlidir ki, 5 ildən sonra narkomaniyanın azalmasında gözlə görülən uğurlar əldə edək? Bu və digər suallara tanınmış psixoterapevt, narkoloq, Qarabağ Universitetinin müəllimi Ramin Allahverdiyevlə müsahibəmizdə savab tapmağa çalışdıq.

***- Bildiyimiz kimi, sentyabrın 17-də Prezidentin imzaladığı sərəncamla “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” təsdiq olundu. Proqramdakı əsas istiqamətlərdən biri dövlət narkoloji tibb müəssisələrində xidmətin təkmilləşdirilməsi üçün peşəkar kadrlarla təmin edilməsidir. Ümumiyyətlə, bilmək istərdik ki, ölkəmizdə narkoloq ixtisası üzrə kadrlar necə hazırlanır? Tibb Universitetində narkoloq ixtisası üzrə kadr hazırlığı gedirmi? Yoxsa, narkoloqlar psixiatriya sahəsindən narkologiya ixtisasına gəlirlər?***

- Ümumiyyətlə, dünyanın istənilən yerində psixiatriya və narkologiya eyni ixtisas sayılır. Çünki eyni problemlərin fonunda baş verən bir prosesi aradan qaldırırlar. Zatən psixoaktiv narkotik maddə istifadəsi nəticəsində psixiatrik problemlər ortaya çıxır. Ona görə, bizdə o ayrı-ayrı müəssisələr kimi götürülür. Hazırda Respublika Narkoloji Mərkəzində də tibbi narkoloji xidmət var. Psixiatriyanın tətbiqində də narkoloji xidmət var. Psixiatriya xəstəxanasında əsasən həm psixiatrik pozuntusu, həm də narkoloji problemi olan vətəndaşlarımız müalicə alır.

***- Deməli, Tibb Universitetində ayrıca narkoloq ixtisası üzrə təhsil yoxdur, eləmi?***

- Xeyr, Tibb Universitetində tələbələr “Müalicə işi” ixtisasını bitirirlər, 6 ildən sonra ixtisaslaşmanı narkoloji və yaxud psixiatriya sahəsi üzrə davam etdirməyə, mütəxəssis kimi yetişməyə qərar verirlər. Tibb Universitetində konkret olaraq narkologiya üzrə ixtisas yoxdur.

***- Bəs psixiatriyada alınan təhsil narkoloq kimi çalışmağa yetərli olur, yoxsa məzun haradasa bu sahə üzrə praktika keçir?***

- Onlara fənnlər tədris olunur, sonradan 2 il ixtisaslaşma gedir. Sonra narkoloji mərkəzdə rezident kimi rezidentura keçirlər. Və burada həm yeni biliklərə yiyələnirlər, həm tibbi tərəfdən araşdırma aparırlar, digər mövzularla bağlı dərslər keçirlər. Məsələn, şəxs narkologiyanı seçirsə, mövzu ilə bağlı əsas praktik tərəfləri araşdırırlar, hər hansı bir həkim supervayzer qismində təyin olunur ki, onu öyrətsin, məlumatlandırsın - prosedur necə gedir, maddə asılılığının müalicəsində hansı dərmanlardan istifadə edilir və s.

***- Sizcə, ayrıca “Narkologiya fakültəsi” açmağa ehtiyac varmı?***

- Zatən burada vacib olan işin nəticəsidir. İşin nəticsi də onu göstərir ki, narkoloji prosesdə detoksifikasiya mərhələsi narkoloqların nəzarətində aradan qaldırılır. Detoksifikasiya da, adından göründüyü kimi, toksiki maddələrin orqanizmdən xaric olunması və şəxsin ağrıdan xilas olunmasıdır. Məqsəd şəxsin ağrıdan xilas olunması və terapiyaya daha yaxşı cavab verməsidir. Ona görə, narkoloqun 6 il Tibb Universitetində oxuması və yaxud onun sonra gedib təhsilini başqa yerdə davam etdirməsi məsələsi yox, hal-hazırkı prosesdə narkoloji xidmətdə nə qədər faydaları varsa, o diqqət mərkəzinə gətirilməlidir. Söhbət ondan gedir ki, burada dünya təcrübəsindən istifadə edirlərmi, araşdırmalar aparırlarmı, akademik yeniliyə açıqdırlarmı? Vacib olan budur. Zatən dövlətin konkret tələbi, təhsil proqramı var. Ona görə, 6 il müddətində hər il 200-300 narkoloq yetişdirək, nəticəyə müsbət təsir etmirsə, bu nəyi dəyişir?!

***- Bəs, hazırkı halda nəticəyə müsbət təsir etmək üçün hansı təkliflər irəli sürülə bilər?***

- Nəticəyə müsbət təsir etmək üçün dünyanın istənilən yerində narkoloji xidmətdə müalicələr multidisiplinar proseslə, yəni komanda işi ilə aparılır. Biz bilirik ki, narkotik maddə istifadəsində birinci tibbi problemlər ortaya çıxır. Tibbi problemlər aradan qaldırılır. Əgər yanaşı komorbid xəstəlik, psixiatrik problemlər, nevrotik problemlər varsa, burada həm narkoloqun, həm nevroloqun, həm psixiatrın, həm psixoloqun işi olmalıdır. Son illər bu, Avropada aktualdır və vacib məsələdir - sosial işçilər prosesə cəlb olunmalıdır ki, ailədaxili münasibətlər, əmək fəaliyyəti, sosiallaşmadakı əsas faktorlar, resosiallaşma, reabilitasiya - bütün bunlar hamısı nəzarətdə olsun. Yəni bizdə belə bir proses gedir ki, biz maddə istifadəçisinin üzərinə daha çox yüklənirik: “sən dəyişməlisən”, “sən narkotik istifadəçisisən”, “sən yalançısan”, “sən oğrusan”, “sən cinayətkarsan”...

Amma təcrübə və tədqiqatlar onu göstərir ki, istifadəçi ilə paralel, valideynlə, ailə ilə iş aparmaq lazımdır. Çünki şəxs narkotik asılısıdırsa, metaforik olaraq onu da “valideyninin narkotiki” kimi dəyərləndirə bilərik. O, narkotik axtarmaq üçün necə şiddətli istək yaşayırsa, valideyin də ancaq onunla - hara getdin, nə yedin, kiminlə görüşdün, istifadə etdin, gözün niyə qızarıb və s. kimi ünsiyyət qurur, bu da tətikləyici faktor kimi çıxış edərək, o şəxsi yenidən narkotikə aparır. Ona görə, multidisiplinar iş apardığımız təqdirdə vətəndaşımızla bağlı çox effektiv nəticələrlə qarşılaşırıq. Amma nə qədər ki, narkoloq deyəcək - psixoloqun bu işə aidiyyəti yoxdur, psixoterapiyaya nə ehtiyac var, işin hamısını mən həll edirəm, - onda biz heç bir nəticə əldə edə bilməyəcəyik.

***- Bu ilin aprelində İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) məruzəsində bir fikir öz əksini tapdı: “Ölkədə ixtisaslı kadrların narkoloq və kliniki psixoloqların çatışmazlığı mövcuddur ki, həmin peşə üzrə mütəxəssislərin də sayının artırılması vacibdir”. Sizcə, narkoloq çatışmazlığı varsa, kadr hazırlamaqla yanaşı, bu hansı şəkildə təmin oluna bilər?***

- Azərbaycanda yetərincə ixtisaslaşmış, öz işinin peşəkarı olan narkoloqlar mövcuddur. Burada əsas məsələ, bayaq dediyim kimi, narkoloq, psixoloq, psixoterapevt, psixiatr, nevroloq, sosial işçi olmaqla, hamının bir komanda şəklində işləməsidir. Bu halda biz o nəticəni əldə edə bilirik. Zatən, faiz dərəcəsinə baxsaq, narkoloqun bu işdə əsas fəaliyyəti 5-10 faizdir. Narkoloq şəxsin orqanizmini təmizlədi, ağrıdan xilas etdi, bundan sonra narkoloqun işi nədən ibarətdir? Yoxdur. Ondan sonra prosesə psixoloq, psixoterapevt, psixiatr, nevroloq və s. daxil olur. Burada vacib olan prosesi düzgün şəkildə keçirməkdir. Narkoloji dispanserlərdə yanaşma bundan ibarətdir ki, əsas narkoloji müalicə oldusa, şəxs sağaldı. Amma biz araşdıranda da, oxuyanda da görürük ki, asılılıq bir düşüncə xəstəliyidir, sosial xəstəlikdir, ailə xəstəliyidir. Biz şəxsin düşüncələri ilə işləməliyik. Şəxsin düşüncəsini dəyişməyə, pozitiv düşüncəni neqativ düşüncənin yerinə qoymağa dəstək olmalıyıq. İstəklə mübarizə modelləri ortaya çıxarmalıyıq. “Yox” demə bacarığını aktivləşdirməliyik. Asılının ailəsi ilə iş aparmalıyıq. Ailədədaxili və xarici tətikləyiciləri aşkarlayıb ortaya çıxarmalıyıq ki, şəxs özünü tək, günahkar, lazımsız, sevgisiz hiss etməsin. Məsələ budur, bu dəqiqə dünya təcrübəsi bunu deyir.

***- Ramin müəllim, yeni Dövlət Proqramında narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmn tədbirləri icra edən şəxslərin peşəkarlığının yüksəldilməsi üzrə təlimlərin keçirilməsi bəndi də var. Bu barədə fikrinizi bilmək istəyərdik...***

- Bununla bağlı onu deyə bilərəmi ki, ümumiyyətlə, hal-hazırda aparılan narkoloji mövzularla bağlı təlimlərdə mütləq yüksək professionallığa malik mütəxəssislər çıxış etməlidir. Orada istifadə etdiyimiz hər söz, hər cümlə, hər düşüncə həm auditoriyanın psixoloji vəziyyətinə, həm də şəxsdə maddə ilə bağlı müsbət və mənfi fikir formalaşmasına təsir edir. Bəzən elə cümlələrdən, elə sözlərdən istifadə olunur ki, bu, şəxsi maddədən uzaqladırmır, əksinə, maddəyə yönləndirir. Əsas da bu məsələnin, yüksək nəzarətlə, orta məktəblərdə həyata keçirilməsi faydalıdır. Biz dünya təcrübəsinə də baxsaq, bu mövzuyla bağlı inkişaf etmiş ölkələrdə əsas təhsil prosesində, orta təhsil müəssisələri və ali təhsil müəssisələrində aparılan profilaktik tədbirlərdə hansı sözlərdən hansı formada istifadə edilməlidir, hansı şəkillərdən necə istifadə olunmalıdır, hansı slaytları göstərmək olar, yaxud hansı olmaz məsələlərinə çox diqqət edildiyini görərik. Bu, çox böyük diqqət tələb edir. Əlbəttə, bu mövzuyla bağlı tədbirlər keçirən təlimçilərin peşəkarlığı vacibdir. Mütləq yüksək peşəkarlığa malik təlimçilər tərəfindən təlim aparılması təmin olunmalıdır. Həm məktəb psixoloqları, həm digər müəssisələrin təlimçiləri, yəni bu işdə uzun illər fəaliyyət göstərən, araşdırmalar aparmış, akademik uğurları olan psixoloqlar, psixoterapevtlər və narkoloqlar tərəfindən təlim almalıdırlar.

Hətta bu mövzu ilə bağlı efirlərdə aparıcıların, qonaqların mütləq həssaslığı nəzərə alınmalıdır. Çünki hər birimizin evində mövcud olan mavi ekran bir güzgüdür, orada işlədilən hər cümlə, hər fikir vətəndaşın psixologiyasına, maariflənməsinə, biliyinə, savadına, dünyagörüşünə, İQ səviyyəsinə təsir edir. Efirdə maddələrin adını çəkmək olmaz, efirdə şpritslərdən, maddə ilə bağlı digər ləvazimatlardan, əşyalardan istifadəni açıq şəkildə göstərmək qadağandır. Bu fikirlərimi də mən ancaq şəxsi təcrübəmə söykənərək və uzun illərdir bu mövzu ilə bağlı Avropada, Amerikada, Yaponiyada, Kanadada aparılan profilaktik tədbirlərin nəticəsi olaraq bildirirəm.

***- Bəzi eksperlət bildirirlər ki, pis vərdişlərə meyldə kriminal heyranlığın da çox rolu var. Həqiqətən də bu tendensiya çox müşahidə olunur. Necə edək ki, uşaqlarda kriminal heyranlıq əmələ gəlməsin?***

- Burada əsas məsələlərdən biri uşaqların ətrafdakı hadisələrlə bağlı aldığı informasiyanın növü və şiddətidir. Bu, vacibdir. Psixologiyada Albert Banduranın “Sosial öyrənmə” nəzəriyyəsi var. Orada Bandura qeyd edir ki, uşaq doğulduğu və mövcud olduğu mühitdə, doğulduğu ailədə də mövcud olduğu mühitdə davranışları birbaşa və dolayı yolla, müşahidə ilə və nümunə götürərək öyrənir. Ona görə, indi informasiya bolluğu, texnolgiyanın inkişafı ön planda olduğu üçün, uşaq beyni müəyyən bir formada o informasiyaları daha intensiv və daha şiddətli, həcm olaraq da daha çox götürür. Analitik olaraq emal baxımından problemlər ortaya çıxdığına görə, uşaq maraq dairəsinə, uşaq beyin funksionallığına uyğun olaraq daha çox mükafata meylli davranışları həyata keçirmək istəyirlər. Mükafata meylli davranış nə ola bilər? Deviant davranış - cinayi davranıça meyllilik, diqqət mərkəzində olmaq, daha çox kriminal düşüncələr və s. Çünki burada bir hegemonluq, özünütəsdiq, “mən də varam” düşüncəsi var. Əsas səbəblərdən biri budur.

Bir daha vurğulayıram ki, efirlərdən verilən informasiyalara mütləq nəzarət edilməlidir. Valideyinlər övladlarını mükafatlandırma - videolara bax, cizgi filminə bax və s. kimi yayındıran məsələlərə yönləndirəndə bu nüanslar nəzərə alınmalıdır.

**Söhbətləşdi: Ülviyyə ŞÜKÜROVA**

# Qiymət inflyasiyası: Ali təhsildə görünməz, amma dərin problem

**Ali təhsil sisteminin dayanıqlığı təkcə universitetlərin infrastrukturundan və proqramlarının məzmunundan deyil, həm də qiymətləndirmə mədəniyyətindən asılıdır. Son illərdə isə bu mədəniyyətin ən zəif halqalarından biri getdikcə daha çox müzakirə olunur - qiymət inflyasiyası.**



Bu anlayış iqtisadiyyatdan götürülüb: necə ki, pul inflyasiyası nəticəsində milli valyutanın dəyəri azalır, eləcə də qiymət inflyasiyası tələbə ballarının reallıqdan uzaqlaşması, yəni akademik "valyutanın" dəyərdən düşməsi deməkdir.

### Qiymətlərin artımı - biliklərin artımı demək deyil

İlk dəfə qiymətlərin süni şəkildə yüksəldilməsi haqqında Qərb universitetlərində hələ ötən əsrin 70-ci illərində danışılmağa başlanmışdı. Həmin dövrdən etibarən orta qiymətlərin illər üzrə sabit şəkildə artması müşahidə edilir, halbuki tələbələrin faktiki bilik səviyyəsi dəyişmir.

Bu tendensiya artıq postsovet məkanında, o cümlədən Azərbaycan ali təhsil sistemlərində də özünü göstərir. Statistik müşahidələr göstərir ki, tələbələrin ümumi orta balları yüksəlir, lakin bu yüksəliş çox vaxt onların real elmi nailiyyətlərini əks etdirmir.

### Sovet ali təhsil sistemində qiymətləndirmə prinsipləri - bilik, zəhmət və məsuliyyət ölçüsü idi

Təhsilin keyfiyyətini müəyyən edən əsas amillərdən biri qiymətləndirmə mədəniyyətidir. Lakin bu mədəniyyətin tarixi inkişafına baxdıqda, aydın olur ki, qiymət anlayışının özü də dövrlər üzrə dəyişib.

Sovet ali təhsil sistemində qiymətləndirmə prinsipləri ciddi və sərt idi. Universitet qruplarında "əlaçı" adını qazanmaq çox çətin idi. Bəzən 25-30 nəfərlik qrupda cəmi 1-2 nəfər "əla" qiymətlərlə məzun olurdu. Bu, həm müəllimlərin yüksək tələbləri, həm də obyektiv qiymətləndirmə mədəniyyətindən irəli gəlirdi.

Həmin dövrdə qiymətin tək funksiyası tələbəni motivasiya etmək deyil, bilginin səviyyəsini real ölçmək idi. Məsələn, müəllim tələbəni qiymətləndirərkən onun bilik dərinliyinə, təhlil qabiliyyətinə, məntiqinə və elmi üslubuna əsaslanırdı. Tələbə həm kurs işlərində, həm də imtahanlarda ciddi müzakirədən keçirdi.

"Əlaçı" olmaq həm müəllimlər, həm də tələbələr üçün ciddi reputasiya məsələsi idi.

Bugünkü ali təhsil mühitində vəziyyət fərqlidir. Universitetlərdə tələbələrin ümumi qiymət göstəriciləri əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə yüksəlib. Bəzən qrupda "əlaçı" tələbələrin sayı yarıdan çox olur.

Bu, ilk baxışda təhsilin inkişafı kimi görünə bilər, lakin əslində bu dinamika qiymət inflyasiyası fenomeninin təzahürüdür - qiymətlərin artması, lakin bilik keyfiyyətinin eyni səviyyədə qalmaması.

Sovet dövrünün sərt qiymətləndirmə sistemi bu gün üçün əlbəttə ki, ideal model deyil. Lakin o dövrün bir üstünlüyü var idi - qiymətin mənəvi və elmi çəkisi. Bu gün ali təhsil sistemi üçün əsas çağırış bu çəkini bərpa etməkdir, amma müasir şəraitə uyğun formada.

Yeni məqsəd sərtlik deyil, ədalətli və şəffaf qiymətləndirmədir. Qiymət tələbənin biliyini əks etdirməli, müəllimin iş yükü isə onun obyektiv qərar vermə imkanını məhdudlaşdırmamalıdır.

Əgər sovet dövründə "əlaçı" olmaq real akademik nailiyyətin göstəricisi idisə, bu gün "əla" qiymət almaq çox vaxt sadəcə prosedur nəticəsidir. Lakin qiymət yalnız rəqəm deyil - o, akademik reputasiyanın göstəricisidir.

Qiymət inflyasiyası problemi ilə üzləşən hər bir universitet - əslində bir sualla qarşı-qarşıyadır: biz tələbəyə bilik veririk, yoxsa sadəcə diplom?

> Sankt-Peterburq Ali İqtisad Məktəbinin 2018-2021-ci illər üzrə məlumatları təhlil olunarkən müəyyən edilib ki, müəllim nə qədər çox kurs aparır və nə qədər çox tələbəni qiymətləndirməli olur, həmin fənn üzrə orta qiymət bir o qədər artır. Hər əlavə tələbə ortalama 0,007 bal fərq yaradır. Bu kiçik fərq böyük axınlarda (məsələn, 500 nəfərlik qrupda) üç ballıq (10 ballıq sistemdə) hipotetik artıma gətirib çıxara bilər.

### Müəllimlərin akademik yükü - əsas səbəblərdən biri

Rusiyalı tədqiqatçıların apardığı bir araşdırma (Forbes Education tərəfindən yayımlanıb) bu hadisənin az nəzərə alınan, lakin mühüm səbəbini aşkarlayıb - müəllimlərin yüklənməsi.

Sankt-Peterburq Ali İqtisad Məktəbinin 2018-2021-ci illər üzrə məlumatları təhlil olunarkən müəyyən edilib ki, müəllim nə qədər çox kurs aparır və nə qədər çox tələbəni qiymətləndirməli olur, həmin fənn üzrə orta qiymət bir o qədər artır. Hər əlavə tələbə ortalama 0,007 bal fərq yaradır. Bu kiçik fərq böyük axınlarda (məsələn, 500 nəfərlik qrupda) üç ballıq (10 ballıq sistemdə) hipotetik artıma gətirib çıxara bilər.

Bunun səbəbi aydındır: çoxsaylı tələbələrin işlərini təhlil etmək və fərdi yanaşma göstərmək üçün vaxt çatmır. Müəllim qiymətləri bir qədər "yumşaldaraq" həm öz yükünü azaldır, həm də tələbə narazılığının qarşısını almağa çalışır.

### Təcrübə, kurs tipi və akademik reputasiya

Tədqiqat göstərir ki, müəllimlərin təcrübəsi və fənnin tipi qiymətləndirmə nəticələrinə əhəmiyyətli təsir göstərir.

Təcrübəli müəllimlər adətən daha sərt və obyektiv qiymətləndirirlər. Onlar dərs prosesini rasional planlaşdırır, tələbələrin bilik səviyyəsini daha dəqiq müəyyən edirlər.

Əksinə, gənc və ya yeni fənn tədris edən müəllimlər çox vaxt qiymətləri şüuraltı şəkildə yüksəldirlər, çünki bu, konfliktlərdən yayınmağın və tələbə məmnuniyyətini "süni" təmin etməyin asan yoludur.

Məcburi fənlərdə qiymətlər adətən daha yüksək olur, çünki bu fənlər üzrə yekun orta bal tələbənin diplom göstəricisinə təsir edir. Fakültativ kurslarda isə, xüsusilə öz reputasiyasına önəm verən təcrübəli müəllimlər daha tələbkardır.

### Qiymət inflyasiyasının mənfi təsirləri

Bu problem təkcə universitetin daxili məsələ deyil, həm də ali təhsilin ümumi keyfiyyətinə və iqtisadi dəyərinə təsir göstərən struktur faktordur.

Birincisi, diplomların etibarlılığı azalır. Əgər demək olar ki, bütün tələbələr yüksək bal alırsa, işəgötürən üçün bu göstəricinin differensial dəyəri itir. Nəticədə "əlaçı" və "zəif" tələbə arasında fərq görünməz olur.

İkincisi, sosial ədalətsizlik dərinləşir. Əgər bəzi universitetlər və ixtisaslar qiymətləri daha çox şişirdirsə, onların məzunları əmək bazarında əsassız üstünlük əldə edirlər. Bu, həm təhsil, həm də iqtisadi sahədə bərabər imkan prinsipini pozur.

### Məsələnin həlli yolları

Qiymət inflyasiyasını azaltmaq üçün universitetlər həm təşkilati, həm də metodik səviyyədə tədbirlər görməlidirlər.

1.Akademik yükün optimallaşdırılması. Dərs yükünün bərabər paylanması, xüsusilə gənc müəllimlər üçün, qiymətləndirmənin obyektivliyini artırır.

2.Qrup və kurs sayına nəzarət. Müəllim eyni zamanda çoxsaylı fənlər və yüzlərlə tələbə ilə işləməməlidir.

3.Qiymət paylanmasının monitorinqi. Universitet rəhbərliyi mütəmadi şəkildə fənlər üzrə qiymət dinamikasını analiz etməli, normadan kənara çıxmaları izləməlidir.

4.Vahid qiymətləndirmə meyarları. Bütün fakültələrdə tətbiq olunan aydın və şəffaf qiymətləndirmə sistemi subyektiv yanaşmaları azaldır.

### Akademik dürüstlük - keyfiyyətin əsası

Qiymət inflyasiyası görünməz, lakin dərin köklərə malik problemdir. Onun aradan qaldırılması yalnız tədris keyfiyyətini deyil, həm də ali təhsilin reputasiyasını qorumağa xidmət edir.

Əgər qiymətlər real bilikləri əks etdirmirsə, universitetin elmi nüfuzu, tələbənin əməyi və diplomun dəyəri zərbə alır. Buna görə də ali təhsildə ədalətli və şəffaf qiymətləndirmə prinsipləri yalnız idarəetmə məsələsi deyil, həm də akademik etika və milli intellektual kapitalın qorunması məsələsidir.

Əgər qiymət yalnız formal göstəriciyə çevrilirsə, universitet tədricən intellektual keyfiyyətin deyil, kəmiyyətin simvoluna dönür. Ədalətli qiymətləndirmə isə universitetin ən dəyərli kapitalıdır - onun akademik reputasiyası.

**Zahid MƏMMƏDOV**
**Professor**

# Putin 97 yaşına qədər hakimiyyətdə qalmaq istəyir



## Qərb mediası: "Rusiya prezidenti hakimiyyəti oğlu İvana təhvil vermək fikrindədir"

**Rusiya başçısı Vladimir Putin 2050-ci ilə qədər hakimiyyətdə qalmaq istəyir. Britaniyanın "Daily Star" qəzetinin araşdırmaçı jurnalist İlya Davlyatçinə istinadla yayımladığı məqalədə belə deyilir.**

Davlyatçinin sözlərinə görə, İosif Stalindən bəri Kremldə ən uzun müddət oturan 73 yaşlı Putin 97 yaşına qədər hakimiyyətdə qalmaq və sonra hakimiyyəti Alina Kabayevadan oğlan oğlu İvana təhvil vermək istəyir. Hazırda onun 10 yaşı var və yalnız 2050-ci ildə 35 yaşı olacaq. Rusiya qanunvericiliyinə görə isə prezident seçilmək üçün vətəndaşın 35 yaşı tamam olmalıdır.

Putinin səlahiyyət müddətini artırmaq üçün 2020-ci ildə yenidən yazılmış konstitusiyaya görə, o, 2036-cı ilə və ya 83 yaşına qədər prezident qala bilər. Rusiya reallıqları nəzərə alınmaqla, əgər sağ qalarsa, həmin vaxtdan sonra Putinin hakimiyyət ömrünü uzatmaq üçün əlavə olaraq hansısa hüquqi mexanizmlər hazırlanması mümkündür.

Nəşr yazır ki, hakimiyyət müddəti baxımından Putin artıq Pinoçeti (17 il), Kim Çen İri (17 il), Benito Mussolinini, İndoneziya diktatoru Suhartonu (20 il) və Rumıniyaya 24 il rəhbərlik etmiş Nikolae Çauşeskunu ötüb. 2036-cı ilə qədər hakimiyyətdə qalsa, Putin Mao Tsedunu, Fransisko Frankonu (İspaniya) və Antonio de Salazarı (Portuqaliya) üstələyə bilər.

Əgər Putin 2050-ci ilə qədər hakimiyyətdə qalarsa, o, Müəmmər Qəddafini (42 il), Kim İr Seni (46 il) və Fidel Kastronu (49 il) üstələyəcək və 50 il hakimiyyətdə olmuş İvan Qroznıdan bəri Rusiyanın ən uzun müddət hakimiyyətdə qalan hökmdarı olacaq.

Bu arada Putinin yaxın ətrafı Rusiya Prezidentinin ömrünün uzadılması məsələlərini fəal şəkildə araşdırır. Sentyabr ayında Rusiya Səhiyyə Nazirliyinə qocalma əleyhinə bütün mövcud elmi tədqiqatları təcili olaraq toplamaq tapşırılıb. Bu barədə "The Times" qəzeti hələ ötən il məsələ ilə tanış olan mənbələrə istinadla məlumat verib.

Mediada yer alan xəbərlərə görə, "qocalma əleyhinə müalicə" layihəsinə Putinin yaxın dostlarından biri olan və Kurçatov Nüvə Tədqiqatları İnstitutuna rəhbərlik edən 77 yaşlı Mixail Kovalçuk nəzarət edir. Putinin böyük qızı, endokrinoloq Mariya Vorontsova da bu işdə iştirak edir.

Beləliklə, göründüyü kimi, Rusiyanın gənc nəslini Ukraynadakı müharibəyə "ət maşını"na atar kimi göndərən Kreml üçün əsas prioritet rusların genefondunu yox, Putinin həyatını, hakimiyyətini qorumaq və mümkün qədər uzunömürlü etməkdir.

### "Rusiya bütün qüvvələrini bu iki şəhəri ələ keçirməyə yönəldib"

Bu arada, ABŞ Müharibə Araşdırmaları İnstitutunun (ISW) yeni hesabatına görə, Rusiya ordusu diqqətini Pokrovsk və Mirnoqrad şəhərlərinin ələ keçirilməsinə yönəldib, Konstantiynovka istiqamətindəki hücumların intensivliyini isə azaldıb.

ISW analitikləri bildirir ki, rus qoşunları Pokrovsk və onun ətrafında hücum əməliyyatlarını gücləndirərək şəhəri tam nəzarətə götürməyə və Ukraynanın bu istiqamətdəki müdafiəsini məhv etməyə çalışır.

Qeyd olunur ki, 1 noyabrda yayılan videolarda rus qüvvələrinin Pokrovskun cənub-şərqində irəlilədiyi görünür. 2 noyabr tarixli görüntülərdə isə Ukrayna qüvvələrinin Pokrovskun şimalında iki rus əsgərinə zərbə endirdiyi qeyd olunur. ISW ekspertlərinin qiymətləndirməsinə görə, bu, kiçik əməliyyat olub və ərazi nəzarətinə ciddi təsir göstərməyib.

Rus hərbi bloqerləri iddia edirlər ki, rus qoşunları Pokrovskun şimal-şərqinə, mərkəzinə və cənub hissəsinə, eləcə də Mirnoqradın şimal və cənub-şərqinə, həmçinin Hnatovka və Roq kəndlərinin cənubuna doğru irəliləyiblər. Eyni zamanda, onların məlumatına görə, Ukrayna ordusu Zatişke (Pokrovskun şimal-şərqi) istiqamətində bəzi mövqeləri geri alıb.

### Kreml bu ölkələrə hücum edəcək...

"Üçüncü Dünya müharibəsi ancaq nüvə silahı ilə başlaya bilər və bu ehtimal azdır".

Bunu isə Ukraynanın keçmiş prezidenti Leonid Kuçma deyib.

O hesab edir ki, Donbasda bataqlığa düşən Moskva daha zəif hədəf seçmək qərarına gələcək və hansısa saziş bağlayaraq qüvvələri, məsələn, Baltikyanı ölkələrə ötürəcək.

Onun fikrincə, burada hər şey nəyin daha güclü olmasından asılı olacaq: "ABŞ Prezidenti Donald Trampın eqosunun, yaxud Rusiya lideri Vladimir Putinin qeyri-adekvatlığının..."

**Hazırladı: İ.SABİRQIZI**



# Tramp üçüncü dəfə prezident olacaq?

**ABŞ Prezidenti Donald Tramp çoxlarının onu istədiyini desə də, üçüncü müddətə prezident olmağı düşünmür. Ağ Ev rəhbəri bunu "CBS"-ə verdiyi müsahibədə bildirib.**

Tramp qeyd edib ki, Demokratlardan fərqli olaraq, prezidentliyə çoxlu respublikaçı namizəd var. Onların arasında hazırkı ABŞ vitse-prezidenti J.D. Vens və dövlət katibi Marko Rubionun adını çəkib.

Maraqlıdır ki, Tramp ABŞ Konstitusiyasının 22-ci düzəlişinə əsasən, 2016 və 2024-cü il prezident seçkilərində qalib gəldikdən sonra əslində üçüncü müddətə namizəd ola bilməz.

Lakin tarixdə siyasətçilərin, xüsusən də Rusiyada, Konstitusiyanı öz ehtiyaclarına uyğun olaraq dəyişdirməsi halları müşahidə olunub. Trampın ilk prezidentlik müddəti 20 yanvar 2017-ci ildən 2021-ci ilə qədər davam etdi. Daha sonra o, Demokrat namizəd Hillari Klintonu məğlub edib.

# Fransanın 65 illik müstəmləkəsinin sonu...

## Türk qoşunları bu ölkəyə dəvət olundu...

**Fransanın Afrikadakı 65 illik hərbi və siyasi təsiri sona çatdığından Seneqal müstəqil müdafiə strukturunu yaratmaq üçün Türkiyəyə müraciət edib.**



Belə ki, Dakar administrasiyası Türkiyə ordusunu öz ordularına təlim keçməsi üçün ölkəyə dəvət edib.

Fəaliyyətlər "Seneqal Silahlı Qüvvələrinə Axtarış, Xilasetmə və Dəniz Nəzarəti Təlimi və Dəstəyinin Təmin Edilməsi Haqqında Türkiyə Respublikası ilə Seneqal Respublikası Hökuməti arasında Anlaşma Memorandumu" çərçivəsində həyata keçiriləcək.

Qeyd edək ki, Seneqalda 65 illik Fransa hərbi mövcudluğu 2025-ci ilin iyul ayında başa çatdı. Fransanın təsirinin sona çatması ilə ölkə müdafiə siyasətini yenidən formalaşdırmaq prosesinə başlayıb.

2025-ci ilin avqust ayında Türkiyəyə səfər edən Seneqal Baş naziri Ousmane Sonko Prezident Rəcəb Tayyib Ərdoğanla birgə mətbuat konfransında aşağıdakı açıqlamanı vermişdi:"-Yerli resurslarımızın, xüsusən də maliyyə və özəl sektorla bağlı resurslarımızın 90%-ni Türkiyəyə açmağa hazırıq. Türkiyəyə tam etibar edirik".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Azərbaycanın inkişaf strategiyası

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubleyi qeyd olundu. Xatırladaq ki, AMEA 1932-ci ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnistitutunun (DTİ) əsasında SSR Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi kimi fəaliyyətə başlayıb. Azərbaycan elminin inkişaf etdirilməsi məqsədilə həmin dönəmdə Ruhulla Axundovun rəhbərlik etdiyi şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər - Bəkir Çobanzadə, Musa Əfəndiyev, Vəli Xuluflu, Aleksandr Qrossheym, İvan Qubkin, N.Marr, İ.-Meşşaninov, A.Məmmədov, Salman Mümtaz, A.Tağızadə, İosif Yesman və başqaları burada elmi tədqiqat işləri aparırdılar.**

1935-ci ilin oktyabrında şöbə SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialına çevrildi. Filialın nəzdində mövcud bölmələr əsasında Kimya, Botanika, Zoologiya və Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat elmi tədqiqat institutları, habelə Energetika, Fizika, Geologiya, Torpaqşünaslıq sektorları yaradıldı. Filialın institut və sektorlarından əlavə respublikada Elmi Tədqiqat Neft İnstitutu, Elmi Tədqiqat Pambıqçılıq İnstitutu, Neft Maşınqayırma İnstitutu, Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu, Hidrotexnika və Meliorasiya İnstitutu yaradıldı, bir sıra elmi stansiyalar və dayaq məntəqələri təşkil edildi.

1938-ci ildə SSRİ EA Azərbaycan filialında 16 elmlər doktoru, professor və 20 elmlər namizədi var idisə, 1941-ci ildə onların sayı müvafiq surətdə 21 və 161-ə çatmışdı.

1945-ci il martın 31-də akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclasında Mirəsədulla Mirqasımov EA-nın prezidenti seçildi. Sonrakı illərdə Yusif Məmmədəliyev (1947-1950, 1958-1961), Musa Əliyev (1950-1958), Zahid Xəlilov (1961-1967), Rüstəm İsmayılov (1967-1970), Həsən Abdullayev (1970-1983), Eldar Salayev (1983-1997), Fəraməz Maqsudov (1997-2000), Mahmud Kərimov (2001-2013), Akif Əlizadə (2013-2019), Ramiz Mehdiyev (2019-2022) akademiyanın prezidenti olmuşlar. Akademik İsa Həbibbəyli 25 oktyabr 2022-ci il tarixində AMEA-nın yeni prezidenti seçilmişdir. 26 oktyabr 2022-ci il tarixində ölkə başçısı tərəfindən bu vəzifəyə təsdiqlənmişdir. Hazırda AMEA-nın 67 həqiqi üzvü və 101 müxbir üzvü var.



## Heydər Əliyevin elm adamlarına qayğısı

Müstəqil Azərbaycan dövlətinə Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə ölkədə elmin inkişafı, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirilmişdir. Təsadüfi deyil ki, Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına “Milli Elmlər Akademiyası” statusu verildi.

Şübhə yoxdur ki, sonrakı dövrdə - Prezident İlham Əliyevin hakimiyyəti illərində də Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahəsindəki stragediyası uğurla davam etdirilməkdədir. Biz bunu İ.Əliyevin elm adamlarına yüksək qayğı göstərməsindən, onların hər zaman dövlət səviyyəsində diqqət mərkəzsində saxlanılmasından, o cümlədən ölkə başçısının dünən AMEA-nın 80 illik yubileyinə həsr olunan yığıncaqdakı çıxışından da aydın görürük.

Yeri gəlmişkən, dünənki çıxışında Akademiyanın 80 il ərzində böyük yol qət etdiyini dilə gətirən Prezident dedi ki, AMEA Azərbaycanda elmin inkişafında aparıcı rol oynayıb. Nitqində mərhum dövlət başçısı Heydər Əliyevin hər zaman Azərbaycan alimlərini dəstək və qayğısını xatırladan dövlət başçısı əlavə etdi ki, onun dövründə də Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparılır.

İlham Əliyev çıxışında bir məsələni də xüsusi olaraq qeyd etdi ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları, Azərbaycan ictimaiyyəti ilə görüşü 1993-cü ildə məhz Milli Elmlər Akademiyasında təşkil olunmuşdur.

## Prezidentdən önəmli mesajlar

Prezident İlham Əliyev AMEA-dakı çıxışında bir sıra mühüm məsələni də elm adamlarının diqqətinə çatdırdı. O vurğuladı ki, hər bir dövlətin inkişafı üçün elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır: “Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər. Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər”.

**Prezident AMEA-dakı çıxışında niyə dövlət strukturlarını alimlərlə daha sıx işləməyə çağırdı...**

Dövlət başçısı çıxışında daha bir önəmli məsələyə - Azərbaycan dilinin qorunmasının zəruriliyinə də toxundu: “On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımı tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik.

Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir”.

## İnkişaf strategiyası

Əlbəttə, Prezident İlham Əliyevin AMEA-dakı çıxışı bir çox parametrlərə görə olduqca zəngin idi. Məsələn, İ.Əliyevin dövlət strukturlarına Azərbaycan alimləri ilə daha sıx işləməyə çağırması, əslində, arzuolunan haldır. Çünki elmi inkişaf etməyən heç bir dövlət dayanıqlı inkişafa nail ola bilməz. Nəzərə alsaq ki, Azərbaycan artıq iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyur, deməli, elm adamları ilə dövlət strukturlarının birgə fəaliyyətinə daha çox ehtiyac var. Deməli, İ.Əliyevin bu çıxışı həm də onu deməyə əsas verir ki,dövlət başçısı Azərbaycanın xarici siyasətdəki uğurlarını tezliklə daxilə də sirayət etdirməkdə və ölkənin hərtərəfli inkişafının əldə olunmasında israrlıdır. Odur ki, əslində Prezidentin məlum təkliflərini ölkənin iqtisadi inkişaf konsepsiyası kimi də qəbul etmək olar.

Kimsəyə sirr deyilki, hər bir dövlətin iqtisadi inkişafının təməlində onun elmi, təhsili və mədəniyyəti dayanır. O cümlədən hər bir xalqın mövcudluğu da bilavasitə onun dili ilə bağlıdır. Belə ki, öz dillərini itirən xalqlar tarixin səhifəsindən silinməyə məhkumdurlar.

Bu baxımdan, Prezident İlham Əliyevin Azərbaycanın bir nömrəli elm ocağında - AMEA-da bir çox nüfuzlu alimlər qarşısında elm və təhsilimizin inkişafı ilə yanaşı, dilimizin qorunmasının önəmindən bəhs etməsi də səbəbsiz deyildi. İnanırıq ki, 44 günlük İkinci Qarabağ Savaşından sonra bütün sahələrdə uğurlu inkişaf modelləri yaradan Azərbaycan dövləti tezliklə siyasət masalarında təkcə region ölkələri ilə deyil, dünya güclələri ilə eyni hüquqlu, bərabər səviyyəli ölkə kimi təmsil olunmağa nail olacaq.

**Tanrı xalqımızı, dövlətimizi qorusun!**

**“Hürriyyət”**

# Tramp Ukraynanı Putinin "caynağına" verir



## ABŞ prezidenti: "Onların döyüşməsinə imkan verməli lazımdır"

**Donald Trampın Ukraynaya "Tomoqavk" raketləri verib-verməyəcəyi qərarı dünya gündəmində ən çox müzakirə olunan mövzulardan olsa da, ABŞ Prezidenti yenə də bununla bağlı qəti qərar verməkdən yayınır.**

Xarici KİV-lər xəbər verir ki, öz təyyarəsində jurnalistlərə açıqalnma verən ABŞ Prezidenti hələlik Ukraynaya uzun mənzilli "Tomaqavk" raketləri verməyi düşünmədiyini deyib.

Jurnalistlər Trampdan onun administrasiyasının Ukraynaya sözügedən raketləri verməyi düşünüb-düşünmədiyini soruşublar. Tramp cavabında "Xeyr, ən azından indi yox" deyib. Lakin o qeyd edib ki, "fikrini dəyişə bilər", amma hələlik cavabı "xeyr"dir.

Ağ Ev rəhbəri həmçinin deyib ki, onun fikrində "Rusiya üçün son damla" deyilən bir şey yoxdur: "Son damla olmayacaq. Bəzən hər iki tərəfin döyüşməsinə icazə verməlisən. Və onlar döyüşürlər. Bu, Putin üçün çətin bir müharibədir. O, çoxlu əsgər itirib, bəlkə də bir milyon. Amma döyüşlər Ukrayna üçün də çətindir".

> Ağ Ev rəhbəri həmçinin deyib ki, onun fikrində "Rusiya üçün son damla" deyilən bir şey yoxdur: "Son damla olmayacaq. Bəzən hər iki tərəfin döyüşməsinə icazə verməlisən. Və onlar döyüşürlər. Bu, Putin üçün çətin bir müharibədir. O, çoxlu əsgər itirib, bəlkə də bir milyon. Amma döyüşlər Ukrayna üçün də çətindir".

Bundan əlavə, Amerika lideri dondurulmuş Rusiya aktivlərinin mümkün müsadirəsi ilə bağlı müzakirələrdə iştirak etmədiyini bildirib.

Qeyd edək ki, oktyabrın əvvəlində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüş zamanı Tramp Kiyevə "Tomaqavk" raketləri verməməyi üstün tutduğunu deyib, çünki onlar ABŞ-nin özünü müdafiəsi üçün lazımdır. Lakin 31 oktyabrda CNN öz mənbələrinə istinadla bildirib ki, Pentaqon Amerikanın raket ehtiyatlarının kifayət edəcək qədər olduğunu qiymətləndirdikdən sonra bu raketlərin Kiyevə çatdırılmasının mümkünküyünü təsdiqləyib. Kanal raketlərin Ukraynaya verilməsi üçün yalnız ABŞ Prezidentinin siyasi qərarının lazım olduğunu bildirib. Pentaqonun belə bir nəticə ilə çıxış etməsi bir növ Trampın qəti qərar verməyə təhrik edilməsi kimi görünür. Bu da ABŞ administrasiyasında "Tomaqavk"-ların Ukraynaya verilməsi üçün Trampa təzyiqlər olduğunun göstəricisi hesab edilir.

Bu arada Rusiya təbliğat kanalları Trampın tərəddüdlərinə baxmayaraq, ABŞ-nin tez, ya gec Ukraynaya "Tomaqavk" raketlərini verəcəyini bildirirlər. Ukraynalı şərhçilərsə bu raketlərin döyüş meydanındakı vəziyyətə həlledici təsir göstərməsə də, Rusiyanın dərinliklərinə zərbələr endirmək üçün effektli olacağını qeyd edirlər. Lakin bunun üçün həm raketlərin, həm də onların buraxılış vasitələrinin sayının çox olmasaı lazımdır.

### "Putin ABŞ-la iş görmək istəyir"

ABŞ Prezidenti onu da qeyd edib ki, Rusiya-Ukrayna müharibəsinin bir neçə ay ərzində başa çata biləcəyini düşünür. Çünki Vladimir Putin Vaşinqtonla ticarəti bərpa etmək istəyir.

"Düşünürəm ki, bu, Putinlə işləyir. Düzünü desəm, Rusiya ilə çox iş görmürük, ona görə də buna bir az fərqli yanaşdım. Bilirsiniz, o, bizdən çox şey alan biri deyil - əsasən, axmaqlıqdan. Və düşünürəm ki, o, bunu dəyişdirmək istərdi. Düşünürəm ki, o, münasibətləri yaxşılaşdırmaq, bizimlə ticarət etmək, Rusiya üçün çox pul qazanmaq istəyir və bu, gözəldir. Mənə xoş gələn budur", - deyə ABŞ Prezidenti bunu jurnalistlərə açıqlamasında bildirib.

Rusiya ilə "bir neçə ay ərzində" razılaşma əldə edilib-edilməməsi soruşulduqda, Tramp cavab verib: "Düşünürəm ki, bəli, əldə edəcəyik. O, həqiqətən də ABŞ ilə iş görmək istəyir".

**Hazırladı: İ.SABİRQIZI**



# "Maduronun günləri sayılıdır"

## Vaşinqton Venesuelaya qarşı əməliyyata hazırlaşır?

**ABŞ Prezidenti Donald Tramp "CBS" telekanalında yayımlanan "60 Minutes" proqramında verdiyi müsahibədə Venesuela ilə yaşanan gərginlikdən danışıb.**

Tramp Venesuela lideri Nikolas Maduronun günlərinin sayılı olduğunu bildirib və ABŞ-yə qarşı "pis rəftar" edildiyini vurğulayıb.

Müsahibədə ABŞ-nin Venesuelaya hərbi müdaxilə edib-etməyəcəyi sualına cavab verərkən Tramp deyib ki, bu ehtimalı şübhə ilə qarşılayır. O, eyni zamanda Venesuelanın təkcə narkotik probleminin olmadığını, həbsxanalarından, psixi sağlamlıq müəssisələrindən ABŞ-yə yüz minlərlə insan göndərildiyini bildirib.

ABŞ-nin Venesuelanın ərazisinə hərbi hücum edib-etməyəcəyi barədə suala isə Tramp "Bu doğru və ya deyil - bunu sizə deməyə hazır deyiləm. Bu cür şeyləri jurnalistlərə deməyəcəyəm" deyə cavab verib.

Bu arada, "Reuters" agentliyi isə xəbər verir ki, ABŞ 20 ildən artıq müddət əvvəl bağladığı "Ruzvelt-Rouds" adlı hərbi-dəniz bazasının bərpasına başlayıb.

Agentlik peyk görüntülərinə istinadən məlumat yayıb. Kadrlarda işçilərin uçuş-enmə zolağına aparan yolları təmizlədiyi və yenidən asfaltladığı görünür.

Eyni zamanda ABŞ-nin Puerto-Riko və Sent-Krua adalarındakı mülki hava limanlarında da hərbi infrastrukturun tikintisi və yenilənməsi işləri aparılır. Hər iki obyekt Venesueladan təxminən 800 kilometr məsafədə yerləşir ki, bu da regionda mümkün hərbi əməliyyatlar üçün əlverişli mövqedir.

Mənbələrin bildirdiyinə görə, bu addımlar ABŞ Silahlı Qüvvələrinin və Dəniz Qüvvələrinin regionda "aktiv hazırlıq rejiminə" keçdiyini göstərir. "Reuters" qeyd edir ki, bu, 1994-cü ildə Haitidə keçirilən "Demokratiyanın dəstəyi" əməliyyatından bəri ABŞ-nin Karib hövzəsində həyata keçirdiyi ən genişmiqyaslı hərbi fəallıq hesab olunur. Həmin vaxt Vaşinqton iki aviadaşıyıcı və 20 minlik hərbi qüvvə göndərərək devrilmiş prezident Jan-Bertran Aristidi hakimiyyətə qaytarmışdı.

Agentliyin məlumatına görə, ABŞ ordusunun bu dəfəki fəaliyyəti Venesuela prezidenti Nikolas Maduronun rejiminə təzyiq göstərmək və onu devirmək məqsədi daşıyır. ABŞ ordusunun üç zabiti və üç dəniz eksperti "Reuters"-ə bildiriblər ki, bu hazırlıqlar Venesuela istiqamətində psixoloji və siyasi təzyiqin yeni mərhələsidir.

Donald Tramp administrasiyası hələ sentyabr ayından Karib dənizində gəmilərə qarşı əməliyyatlar keçirir. ABŞ kəşfiyyatının məlumatına görə, bu gəmilər narkotik qaçaqmalçılığı ilə məşğuldur və Vaşinqton bu fəaliyyətin arxasında Maduro rejiminin dayandığını iddia edir.

ABŞ Prezidenti Donald Tramp bir neçə dəfə Venesuelaya hərbi müdaxilə niyyətinin olmadığını bəyan etsə də, Qərb mediası bunun əksini düşünür. "Financial Times" yazır ki, Ağ Ev artıq Venesuela istiqamətində əməliyyat planlarını razılaşdırıb. Mənbəyə görə, Vaşinqtonun masasında üç ssenari var:

-Raket və pilotsuz zərbələr - narkotik ticarəti ilə əlaqələndirilən obyektlərə məhdud zərbələr;

-Hədəfli əməliyyat - prezident Nikolas Maduronun və ya onun yaxın çevrəsinin ələ keçirilməsi;

-Tammiqyaslı müdaxilə - ABŞ ordusunun birbaşa Venesuela ərazisinə daxil olması.

Bununla belə, "Financial Times" bu ssenarilərin tammiqyaslı müharibəyə çevrilmə ehtimalını aşağı qiymətləndirir.

Ekspertlər hesab edirlər ki, ABŞ-ın Karib regionunda artan fəallığı Cənubi Amerikada geosiyasi rəqabətin yenidən qızışdığını göstərir. Venesuela hazırda həm Rusiya, həm də Çin ilə sıx hərbi və iqtisadi əməkdaşlıq edir. Buna görə də Vaşinqtonun addımları təkcə Maduronu deyil, həm də onun Moskva və Pekinlə qurduğu ittifaqı hədəfə alır.

Bəzi analitiklər isə bu prosesin "soyuq müharibənin" yeni mərhələsinin başlanğıcı ola biləcəyini istisna etmirlər.

**RƏŞAD**

# Nehrəm sakini "Dinamic Ocean" MMC-dən şikayətçidir

## Vəfadar Eyvazov: "Məhkəmə prosesində iştirakım olmadan, hakimi Günay İsmayıl mənim haqqımda qərar qəbul edib"

**Nehrəm kənd sakini Eyvazov Vəfadar Vəli oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi su filtrlərinin satışı ilə məşğul olan "Dinamic Ocean" MMC şirkətindən narazılığını bildirir:**




"Mən, Eyvazov Vəfadar Vəli oğlu, Babək rayonu, Nehrəm qəsəbəsinin sakiniyəm. Mən su filtlərinin satışı ilə məşğul olan "Dinamic Ocean" MMC şirkətindən şikayətçiyəm.

Belə ki, şirkət vasitəsilə müqavilə bağlayıb, özümə su təmizləyici qurğu almışam. Müqavilədə göstərilmişdir ki, vətəndaşa satılan su filtrlərində 48 ay ərzində problem olarsa, dərhal müraciəti araşdırılacaq və yenisi ilə təmin ediləcək.

Qurğunu aldıqdan cəmi 7-8 ay sonra şirkətə zəng etdim və mənə satılan aparata baxılmasını xahiş etdim. Şirkətin əməkdaşları səhlənkarlıq etdilər, gəlib baxmadılar. Mən də filtrin həmin aydan ödənişi dayandırdım. Həmin vaxta qədər 1 100 manatdan artıq pul ödəmişdim, 872 manat borcum qalırdı.

Ödənişi dayandırdıqdan sonra şirkətə bildirdim ki, gəlin aparatınızı aparın, ödədiyim pulu da qaytarın. Bu şirkət əvəzində məni Babək Rayon Məhkəməsinə verdi.

Mənim üçün çox maraqlıdır ki, Babək rayonunda gedən məhkəmə prosesində iştirakım olmadan, hakimi Günay İsmayıl mənim haqqımda qərar qəbul edib. Haqqlı olaola, haqsız duruma düşürəm. Yəni mənsiz məhkəmə keçirilib, qərar verilib. Belə çıxır ki, şirkət məhkəməni "satın alıb". Həm suçludu, həm də güclüdürlər. Vətəndaş isə zəif nümayəndə olduğu üçün hər zaman "haqsızdır"".

**Jalə FAMİLQIZI**

**Redaksiaydan: Məsələ ilə bağlı "Dinamic Ocean" MMC ilə əlaqə saxlamağa çalışsaq da, mümkün olmadı. Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Xaçmaz sakinindən nazir Anar Əliyevə müraciət

## Balamirzə Mikayılov hərbi xidmət zamanı minaya düşən oğluna 3-cü qrup əlillik verilməsinə etiraz edir

**Xaçmaz rayonu, Ruslan İmamverdiyev küçəsi, ev 11-də yaşayan Balamirzə Mikayılov tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Anar Əliyevə müraciət edir:**

**"Hörmətli Anar Əliyev!**

Mən, Mikayılov Balamirzə, İkinci Qarabağ Müharibəsinin iştirakçısı, 3-cü qrup əlil Mikayılov Elvinin atasıyam. Oğlumun dizdən aşağı bir ayağı yoxdur. Sizin rəhbərlik etdiyiniz nazirlik ona 3-cu qrup əlillik təyin edib.

Övladım Mikayılov Elvin 30 dekabr 2024-cü il tarixində həqiqi hərbi xidmətdə olarkən minaya düşmüşdür. Bunun nəticəsində onun sağ ayağı dizdən aşağı amputasiya olunmuşdur. Bundan əlavə, onun bel nahiyəsində də qəlpələr var. 45 günə yaxın Dövlət Sərhəd Xidmətimin (DSX) Hərbi Hospitalında müalicə alıb.

İyul ayında övladıma 3-cü qrup əlillik təyin edilib. Bir neçə dövlət qurumuna müraciət edərək, övladıma 2-ci qrup əlillik verilməsini tələb etsəm də, heç bir qurum bu şikayətimə baxmamışdır. Bundan başqa, övladıma 4400 manat sığorta pulu təyin olunsa da, "travma pulu" verilməmişdir.

**Hörmətli Nazir!**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarına hörmətlə yanaşmağa çalışsam da, ədalətsizlik açıq-aşkar görünür. Belə ki, oğlumun əmək qabiliyyəti yoxdur, amma 3-cu qrup əlillik təyin edirsiniz. Bu uşaq aldığı təqaüdlə necə iynə-dərmanını alsın? İndi bir çox xəstələrə 3-cü qrup əlillik təyin olunur. Əli, ayağı üstündə olan şəxslər də az deyil.



Keşkə imkan olaydı, əlilliyin meyarları müəyyənləşməzdən əvvəl parlamentdə olan deputatların bir neçəsinin bəzi əzalarını kəsəydilər. Kimisinin əl barmaqlarını, kimisinin dizdən aşağı ayağını, kimisinin başının yarısını kapronla yığaydılar. Həmin deputatlar parlamentə sağalıb gələndən sonra əlillik meyarlarının müəyyənləşdirilməsi üçün səsvermə olaydı. Yalnız bu halda onlar ədalətli qərar verib, qanun layihəsini parlamentdə müzakirəyə çıxarardılar. Əks təqdirdə, əli, ayağı olmayanı anlaya bilməzlər. İş qabiliyyəti olan da 3-cü qrup alsın, bir ayağı olmayan da?!

Əlbəttə, mən aqressiv ata kimi nəzərinizdə qalmaq istəmərəm. Amma, cənab nazir, siz deyin bu haqsızlıq deyilsə, bəs nədir?!"

Məsələ ilə bağlı Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyindən "Hürriyyət"ə bildirdilər ki, Xaçmaz rayon sakini, 2006-cı il təvəllüdlü Mikayılov Elvin Balamirzə oğlu əlilliyinin qiymətləndirilməsi ilə bağlı tibb müessisəsi tərəfindən rəsmiləşdirilən forma-88 göndərişi əsasında 10.07.2025-ci il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib:

"Agentliyin həkim-ekspertlərinin əyani müayinəsi zamanı vətəndaşın hazırki sağlamlıq vəziyyətinin qanunvericiliyə uyğun olaraq orqanizmin funksiyalarının 50% pozulmasına görə müddətsiz əlillik təyinatına əsas verməsi barədə qərar qəbul edilib.

Qeyd edək ki, Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na əsasən, sağ baldırın yuxarı 1/3 travmatik ampultasiyasından sonrakı güdülü" diaqnozu orqanizmin funksiyalarının 50% pozulmasına görə müddətsiz əlillik təyinatına əsas verir".

**Jalə FAMİLQIZI**

# Ağsu sakini rayon xəstəxanasının rəhbərliyindən şikayətçidir

## "Dedi ki, baş həkim Gülnar xanım tapşırıb, damar iynəsi və ya sistem köçürmək olmaz"




**Ağsu rayon sakini Abışov Hafiz Atakişi oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Ağsu xəstəxanasında tibb bacılarına iynə vurmağa icazə verilmir:**

"Mən, Abışov Hafiz Atakişi oğlu, yazaraq bildirirəm ki, "Neftçilər" Xəstəxanasında olan özbaşınalıqları 24.09.2025-ci il tarixində Kürdəmir rayonunda vətəndaş qəbul zamanı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyevin və TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun qəbulunda olarkən bildirdim. Çox sağ olsunlar, axıra kimi məni dinlədilər, tapşırıqlar verdilər.

02.10.2025-ci il tarixində həyat yoldaşımın səhhətində yaranmış problemlə əlaqədar onu Kürdəmir rayon xəstəxanasına apardım. Ginekoloq Günel xanımın qəbulunda olduq. Resept yazıb bildirdi ki, təcili iynə-dərmanını etdirin.

Maddi sıxıntıların səbəbindən həmin günü dərmanları ala bilmədik. Səhəri gün iynə-dərmanı alıb, Ağsu xəstəxanasına yaxınlaşdıq. Tibb bacısından xahiş etdik ki, bu iynəni vursun. Tibb bacısı bildirdi ki, növbətçi həkimə deməsə, iynəni vura bilməz.

Növbətçi Aynur adlı həkim idi. Aynur xanım çox aqressiv şəkildə "olmaz, icazə yoxdur", - dedi. Niyəsini soruşduqda isə bildirdi ki, baş həkim Gülnar xanım tapşırıb, damar iynəsi və ya sistem köçürmək olmaz.

Əlacsız qalıb başqa bir yerdən tibb bacısı tapıb, iynəni vurdurduq. Həmin gündən İcbari Tibbi Sığortanı və TƏBİB-in qaynar xəttini yığıb iradımı bildirdim. Bu özbaşınalıqdan başqa heç nə deyil.

Xəstəxananın baş həkimin müavini Vüqar Həmidovdan soruşduqda ki, müraciətim nə yerdədir, heç bir cavab ala bilmədim. Bir sözlə, Ağsu sakinlərinin işi Allaha qalıb. Xəstə xəstəxanada iynə vurdura bilmir, bu nə deməkdir?!"

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Ramiz Mehdiyev onun adını eşidəndə etiraz etdi...

## Misir Mərdanovdan Həsən Həsənovla və siyasi gündəmlə bağlı sensasion yazı

Keçmiş təhsil naziri, AMEA-nın müxbir üzvü Misir Mərdanov sabiq xarici işlər naziri Həsən Həsənovla bağlı geniş məqalə yazıb. "Hürriyyət" mövzunun aktuallığını nəzərə alıb, həmin məqaləni oxucularına təqdim edir:

*(Əvvəli ötən saylarımızda)*



Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, 2013-cü il yanvarın 30-dan fevralın 3-dək Avropa Şurasının Parlament Assambleyasının tədbirində iştirak etmək üçün Polşada olduğum günlərdə də analoji hadisələrin şahidi olmuşam. Həm səfirlik kiçik bir Azərbaycan idi, həm də sanki Polşanın qonşusu, müttəfiqi, dostu yox idi, onun ürəyi yalnız Azərbaycanla döyünürdü. Hər yerdə Azərbaycan rəmzləri, konsertləri, sərgiləri, gecələri, konfransları gedirdi, Azərbaycan alimləri Polşa-Azərbaycan elmi münasibətlərini, xalqların tarixi bağlılığını, dostluğunu, Azərbaycan Cümhuriyyəti nümayəndələrinin mühacirət dövrünü yaşadığı Polşa mühitini, ədəbi əlaqələri və digər məsələləri öyrənməyə cəlb edilmişdi, Azərbaycan ədəbiyyatı nümunələri polyak dilinə tərcümə edilərək kitabxanalara bağışlanılırdı, kitab mağazalarında satılırdı, 2017-ci ildə Varşavada "Polşanın və Azərbaycanın müstəqilliyi uğrunda döyüşən qəhrəmanlar" abidəsi açılmışdı və s. Bütün bunların isə bircə səbəbi var idi - Həsən Həsənov həmin dövrdə Polşada səfir idi!

Yeri gəlmişkən qeyd edim ki, Polşada səfir olarkən, 2011-ci ilin əvvəllərində mənə zəng etmişdi: "Misir müəllim, Polşa universitetlərində Azərbaycan dilini öyrənmək istəyirlər (!!!), tələbələr üçün "Azərbaycan dili" kitabının hazırlanmasında mənə köməyiniz lazımdır".

Ona belə nəcib işin müqabilinə nə cavab vermək olardı? Axı dünyanın onlarla ölkəsində səfirliyimiz var, onların heç birində Azərbaycan dilini öyrənmək istəmirlər, necə olub ki, bircə Polşada qəfildən dilimizə maraq əmələ gəlib. O da başqaları kimi ildə üç-dörd tədbir keçirməklə günlərini keçirə bilərdi, istirahət edərdi, Polşanın gəzməli, görməli yerlərinə səfər edərdi, ancaq oranın təhsil naziri ilə, universitetlərin rektorları ilə görüşüb, onları inandırıb ki, Azərbaycan dilinin tədrisi olduqca vacibdir, indi də mənə zəng edib, bu qədər vaxt itirib, əsəb sərf edib, müxtəlif cavablara hazır olaraq dediyini həyata keçirmək əzmindədir. Axı nəyə görə? Beləsinə başqa nə demək olardı:

- Baş üstə, Həsən müəllim!

Nəşriyyat şöbəsinin müdirini və digər əlaqədar şəxsləri dəvət etdim, oturub xeyli müzakirə etdik. Kitabın polyak dilində yazılması, əlifbadan müasir dilimizə, ədəbiyyatımıza qədər bütün sahələri əhatə etməsi, aydın, anlaşıqlı, həm də maraqlı, cəlbedici olması üçün təklifləri dinlədim, ümumi qərara gəldik. Polyak dili üzrə Dillər Universitetindən Fəridə Səfiyeva adlı bir mütəxəssis tapdıq, onun Azərbaycan dilini və dilçiliyini də mükəmməl bilməsi haqda dəqiqləşdirmə apardıq. Sonra həmin xanımı dəvət edib mütəxəssislərlə birlikdə kitabla bağlı geniş müzakirə keçirdik, nəhayət bir müddətdən sonra dərslik hazır oldu. Həmin xanımı kitablarla birgə Varşavaya yola saldıq, beləliklə, Həsən müəllimin fədakarlığı nəticəsində Polşa universitetlərində dilimiz tədris edilməyə başladı.

Polşada səfir işlədiyi 2018-ci ildə (o vaxt Riyaziyyat və Mexanika İnstitutunun direktoru idim) Həsən müəllim mənə zəng etdi ki, Nəsirəddin Tusi ilə bağlı yeni tədqiqatlar aparmağa başlamışam və çox maraqlı faktlar üzə çıxarmışam. Bakıdan bu işə dəstək verilməsi barədə araşdıranda gördüm ki, onunla bağlı az-çox rəhbərlik etdiyiniz İnstitutda işlər görülüb, konfranslar keçirmisiniz, ona görə də Sizə zəng etmişəm.

Yenə də bu insanın əməksevərliyinə, patriotluğuna heyrət edib düşündüm ki, ay Həsən müəllim, axı Sizin nəyinizə lazımdır Nəsirəddin Tusi? İxtisasınız mühəndislik, vəzifəniz səfirlik, doktorluq işiniz isə tarixin fəlsəfəsindən. Astronom, riyaziyyatçı Nəsirəddin Tusi hara, tarixin fəlsəfəsi, yaxud səfirlik hara?! Ay qardaş, sakitcə otur səfirliklə məşğul ol, qoy biz də günümüzü keçirək də... Ancaq Həsən Həsənov bir çərçivədə qalıb hadisələri seyr etməklə məşğul olan insanlardan deyil. Vətənin hər kiçik uğuru onun nəhəng sevinc mənbəyi, hər şəxsiyyəti onun ürəyini dağa döndərən ümid çırağıdır! O ki qalsın Nəsirəddin Tusi kimi görkəmli tarixi simalar ola! Söhbət edəndə yana-yana deyir ki, mən etməsəm, sən etməsən, kölgədə qalmışların, unudulmuşların üstündən tozu kim silib bu xalqa tanıdacaq? Axı xalq bizə savad verib, səlahiyyət verib, şərait yaradıb ki, onun ümidlərini doğrultdaq, ona xidmət edək, onun dünya boyda şöhrətə layiq olsa da, tanınmayan şəxsiyyətlərini özünə qovuşduraq!

Onun yanğı ilə danışdığı məsələlərdən biri də belədir: "Dünyanın çox yerində olub görmüşəm ki, bizim dahilərin əlinə su tökməyə layiq olmayan birisini o qədər tərifləyib dağ başına qoyublar, adlarına küçələr, aeroportlar, muzeylər, heykəllər düzəldiblər, adlarını dərsliklərə salıblar və dünyaya reklam ediblər ki, bunun tayı bərabəri yoxdur və cəmiyyət də onu olduğu kimi yox, elə təqdim edildiyi kimi tanıyır. Bizim şəxsiyyətləri nə özümüz tanıyırıq, nə də dünyaya tanıdırıq..."

...Razılaşdıq ki, Bakıya gələndə bu məsələni ətraflı müzakirə edərik. Bir müddət keçmişdi ki, gəldi və birlikdə Akademiyanın o vaxtkı prezidenti Akif Əlizadənin qəbuluna getdik. Nəsirəddin Tusi ilə bağlı Həsən müəllimin elmi əsaslarla ətraflı məlumatlarından, dəmir məntiqli fikirlərindən sonra qərara gəldik ki, Akademiyada onun adına Mərkəz yaradılsın və Həsən müəllim də həmin Mərkəzin rəhbəri olsun. Doğrusu, belə böyük, dünyanın bərkini-boşunu, dürlü-dürlü vəzifələrini, çətinliklərini və xoşbəxtliklərini görmüş bir insanın Nəsirəddin Tusi Mərkəzinin açılması barədə ilkin razılaşmadan bu qədər sevinəcəyini gözləmirdim. Elə bil dünyanı ona bağışlamışdılar, ayrılana kimi Nəsirəddin Tusinin xidmətlərindən, onu dünyaya tanıtmaq üçün bu Mərkəz vasitəsilə görməyi planlaşdırdığı işlərdən ürək dolusu danışdı. Ancaq sən saydığını say, gör fələk nə sayır, deyiblər... Akif Əlizadə bizim planlarımız barədə Prezident Administrasiyasında məlumat verəndən sonra (ştatların açılması, bina ayrılması və digər texniki problemlər üçün razılaşdırılmaq zəruri idi), Ramiz Mehdiyev ömrü boyu məhz milli təəssübkeşliyinə görə kölgəsini qılıncladığı Həsən Həsənovun adını eşidən kimi etirazını bildirib, "bir Nəsirəddin Tusi qalmışdı mərkəzini açaq?!" deyərək qəti imtina edib. Bununla da, necə deyərlər, "qurduğumuz xəyallar", əksər hallarda olduğu kimi, bir məmurun subyektiv münasibətinə görə üreyimizdə qaldı.



Doğrusunu deyim ki, bir müddət sonra həmin hadisəni tamam unutdum, işdə, ailədə, həyatın digər sahələrində baş verən müxtəlif əhvalatlar xalqımızın böyük bir nümayəndəsi ilə bağlı yaratmaq istədiyimiz o Mərkəzin planlarının üzərini yavaş-yavaş bağladı və bir də 6 il sonra bərk təəssüfləndim ki, kaş o Mərkəz açılmış olaydı. 2024-cü il iyulun 3-də Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə Nəsirəddin Tusiyə həsr olunmuş "Riyaziyyat və mexanikanın müasir problemləri" adlı XI beynəlxalq konfrans keçirməyi planlaşdırmışdıq. Elanları, bildirişləri mətbuatda yerləşdirəndən sonra Həsən müəllimdən zəng gəldi:

***- Misir müəllim, Nəsirəddin Tusi ilə bağlı tədbir keçirirsiniz, bəs mənə niyə demirsiniz?***

- Ay Həsən müəllim, bu, riyaziyyatçıların toplantısıdır, Sizi narahat etmək istəmədim.

Əslində, onun Nəsirəddin Tusi ilə əlaqədar olan söhbətləri unutmuşdum deyə, Həsən müəllimə demək heç yadıma düşməmişdi. Digər tərəfdən fikirləşmişdim ki, riyaziyyatla bağlı belə tədbirə görə, artıq heç yerdə işləməyən, Bakıda sakit bir həyat yaşayan bu görkəmli şəxsiyyəti narahat etmək düzgün olmaz. Demə, o, heç də sakit həyat yaşamır, bütün günü oxumaqla, yazmaqla, xalqı üçün faydalı nə isə etməklə məşğul olaraq kifayət qədər gərgin bir ömür sürür.

***- Misir müəllim, heç bir narahatlığı yoxdur, icazə versəniz, mən də iştirak edərəm, imkan olsa, çıxışım da ola bilər.***

- Böyük məmnuniyyətlə, Həsən müəllim, təki Siz gəlin!

İyulun 3-də keçirilən tədbirdə məndən savayı, Akademiyanın prezidenti İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü Əminağa Sadıxov, Türkiyədən və Özbəkistandan gələn tanınmış alimlər və başqaları çıxış etdilər, Həsən Həsənov da danışdı. Bir həqiqəti etiraf etmək istəyirəm ki, uzun müddət bu çıxışlara hazırlaşmış, ixtisas yönümü yaxın olan biz alimlərin çıxışı bir tərəfə oldu, diplomat, siyasətçi, tarixçi alim, inşaatçı Həsən Həsənovun çıxışı bir tərəfə. Bu insan həmin çıxışla nə qədər zəngin bir şəxsiyyət, dərin analitik təfəkkür sahibi, mükəmməl biliyə malik alim, xalqı, vətəni ürəkdən sevən patriot, yüksək natiqlik məharətinə malik istedad olduğunu bir daha sübut etdi. Biz hamımız Nəsirəddin Tusini xalqın fəxri olan bir riyaziyyatçı alim kimi səciyyələndirdik (bir az da bir-birimizi təkrar edib şablon cümlələr işlətdik), o isə Azərbaycanda astronomiya ənənəsindən, Tusinin dünya elmində və xeritəçilik elmində rolundan, eləcə də böyük mütəfəkkirin milli-mənşəyindən, Tusinin yüksək nailiyyətləri və uzaqgörənliyi ilə dünya elmini bir neçə əsr qabaqlayan yüksək zəkaya malik elm xəzinəsi olmasından, onun elmi irsinin, zəngin yaradıcılığının daha dərindən öyrənilməsinin zəruriliyindən elmi əsaslandırmalarla elə maraqlı danışdı ki, hamımız heyrət etdik.

Elə bil ömrü boyu nə xarici işlər naziri olub, nə Gəncənin rəhbəri, nə diplomatik fəaliyyət göstərib, nə də Baş nazir vəzifəsində işləyib, bütün həyatını Nəsirəddin Tusiyə həsr edib, onu araşdırıb, öyrənib, indi də uzun onilliklər boyu öyrəndiklərini bizə danışır. Bəs görəsən, hər biri 300-500 səhifə olan və Əlimərdan bəy Topçubaşova həsr edilən "Top gurultusu altında diplomatiya", Azərbaycan və bütün müsəlman dünyası tarixində ilk demokratik respublikanın müstəqilliyinə gedən yolunu və yaranması prosesini əks etdirən "Birinci Respublikaya aparan yolda", Bakı bütpərəstlik kompleksini, Bakı Qız qalasını, Qobustanın nadir qayaüstü təsvirlərini hərtərəfli tədqiq edən "Bakı tanrıçılıq kompleksi", Antik dövr Azərbaycanının görkəmli dövlət xadimi Atropat və onun Makedoniyalı İsgəndərlə əməkdaşlığına dair "Makedoniyalı İsgəndər və Atropat", Bakının, Qız qalasının, həmçinin çoxsaylı toponim və antroponimlərin şifrini açan "Bakı Qız qalası", Ümummilli lider Heydər Əliyevə həsr edilmiş "Parlaq, xarizmatik şəxsiyyət haqqında xatirələr" kitablarını və digər çoxsaylı və çox sanballı elmi əsərləri kim yazıb?! Nə vaxt yazıb?! Necə çatdıra bilib?!

Vətənpərvərliyi dilə gətirmək asandır, onu əməllərdə yaşatmaq isə çox çətindir. Həsən Həsənov bu çətin yolu seçənlərdən olub - ömrü boyu səhnədə yox, səhnəarxasında vətən üçün çalışıb. Doğru deyilmişdir ki, "vətənpərvərlik içki məclislərində boğazdan yuxarı xalqın şərəfinə tost demək, "Qarabağ" havası ilə rəqs eləmək deyil", Vətən üçün nə isə etməkdir. Onun həyat yoluna baxanda milyonlardan fərqli bir tale görmək olur. İnsanların əksəriyyəti kimi sabit və hamar, necə deyərlər, "düzxətli, bərabərsürətli" yol keçməmişdir, bir ömürdə gah inşaatçı, gah mühəndis, gah səfir, gah iqtisadçı, gah Baş nazir, gah xarici işlər naziri, gah BMT-də Azərbaycan Respublikasının Daimi Nümayəndəsi, gah İcra başçısı, gah Mərkəzi Komitənin katibi, gah da unudulmuş bir ziyalı... Bütün bu müxtəlifliyi birləşdirən isə Vətən sevgisi və fədakarlıq hesab edilə bilər...

Bu gün 85 yaşında da yorulmadan, gənclik həvəsi ilə çalışan Həsən Həsənov Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının Azərbaycandan olan nümayəndəsidir. 60-70 il bundan əvvəl olduğu kimi, bu gün də nəcib duyğularla, böyük arzularla yaşayır-Türk xalqlarının vahid amallar və məqsədlər yolunda birləşməsi ən müqəddəs istəklərindən biridir, yaxın onilliklərdə bu arzusunun həyata keçəcəyinə inanır. Biz də 15 il sonra qeyd ediləcək yubileyində özünün bu xəbəri xalqımıza çatdırmasını arzulayırıq!

Həsən müəllim haqqında kitab-kitab məqalə yazmaq olar, saatlarla danışmaq olar, nə yorularsan, nə bezərsən, nə də mövzu bitər! Ancaq mən bu yazını yekunlaşdırmaq istəyirəm və sonda tariximizin Qızıl fonduna daxil olan bu insanla bağlı Xalq şairi Cabir Novruzun bir misrasını qeyd edirəm: "Sağlığında qiymət verin insanlara..."

**Misir MƏRDANOV**

# Çalışdığı zavoda 2,4 milyonluq səhm yatırdı, 24 ildə bir manat da divident götürməyib...

**Bakı Şəhər sakini Şərifov Ədalət Mirzəbaba oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi 2001-ci ildə "Bakı Mərkəzielektrotökmə" ASC-yə yatırdığı səhmlərin aqibətinin bəlli olmadığını deyir:**



"Mən, Bakı şəhər sakini Ədalət Şərifov, 2001-ci ilin yanvar ayında dövlət tərəfindən bizə verilmiş və həmin dövrdə işlədiyimiz "Bakı Mərkəzielektrotökmə" ASC-yə yatırdığım səhmlər barədə sizə müraciət edirəm. Bu günə qədər səhmlərimizin aqibəti bəlli deyil. İndiyə qədər heç bir dividend almamışıq. Həmin dövrdə ən cavan səhmdarın 45-50 yaşı var idi.

Respublika Auksion Mərkəzinin Baş direktorunun imzası ilə mənə verilən arayışa əsasən, səhmlərimin ümumi dəyəri 2430.000 (iki milyon dörd yüz otuz min) manat təşkil edir. Bir səhmin dəyəri on min manat hesablanıb. Dövlət Əmlak Komitəsinin ilk protokoluna əsasən, müəssisənin 11.5%-i səhmdarlara, qalanı isə dövlətə məxsusdur. 22 ildən sonra, 2022-ci ildə bəlli oldu ki, səhmdarlara cəmi 0,5 % məxsusdur.

2018-2023-cü illər ərzində kollektiv nümayəndələri ilə birgə 7 dəfə Prezident Aparatına, 5 dəfə Nazirlər Kabinetinə, dəfələrlə Əmlak Komitəsinə və digər aidiyyəti dövlət orqanlarına qəbula getmişik, ərizə və şikayətlər vermişik. Müəssisədə baş verən cinayət əməlləri haqda sənədlər təqdim etmişik. Lakin bizi eşidən olmadı. Heç bir qurumda məsul şəxslər bizi qəbul etmədi. Sıravi işçilər qəbul edərək deyirdilər ki, gedin zavod rəhbərliyinə müraciət edin.

Bu illər ərzində bir neçə dəfə 2018-ci ildə səhmdarların iştirakı ilə iclas keçirildi. Ümumilli lider Heydər Əliyev müəssisələrin özəlləşdirilməsi haqqında sərəncam imzalayarkən bilsəydi ki, illər sonra məmurlar millətə belə divan tutacaqlar, bəlkə də o sərəncamı imzalamazdı. Görəsən indiki məmurlar onda çox bilirlər?!

Prezident Aparatının mərkəzdən kənarda bir qəbul idarəsi fəaliyyət göstərir. 3 dəfə ora getmişik, Prezident Aparatının məsul işçiləri qəbula gəlmədilər. Vətəndaşları qəbul edən cavanlar telefonda oyun oynayaraq bizləri dinləyir və deyirdilər ki, şikayətinizi çatdırarıq. Dözməyərək onlara dedim ki, buranın adını dəyişin və yeni ad "Vətəndaşları aldatma və Prezidentə yalan məlumat vermə idarəsi" adlandırın. Bu daha doğru olar".

Xahiş edirəm, şikayətimizi ictimailəşdirin. Bəlkə bundan sonra aidiyyəti dövlət orqanları bizə cavab verər".

**Hazırladı: Jalə FAMİLQIZI**

# "Guya mən hansısa sənədə imza atmışam..."

## İmşili sakinini özünün xəbəri olmadan arvadından boşayıblar...

**İmişli rayonu, Cəfərli kənd sakini Əliyev İsmayıl Abdulla oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. İ.Əliyev Ədliyyə Nazirliyinin İcra və Probasiya Şöbəsindən şikayətçidir:**



"Mən, Əliyev İsmayıl Abdulla oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, şikayətim İmişli rayonu İcra və Probasiya şöbəsinin icra məmuru Ramil Paşayevdəndir. Belə ki, keçmiş həyat yoldaşım Ağayeva Gülnarə Adil qızı və onun yaxın qohumları icra məmurunu ələ alaraq, başıma oyun açırlar.

Qeyd edim ki, 2016-ci ildə yoldaşım boşanma üçün məhkəməyə müraciət edib və hakim iddianı təmin edib. Həmin vaxt ölkə xaricində olmuşam. Nə məhkəmədən, nə də boşanmadan xəbərim olmayıb. Azərbaycanda olmadığım tarixdə "icra məmurunun yanında olub, hansısa sənədə imza atmışam" kimi göstəriblər. Guya mən demişəm ki, aliment borcunu ödəyə bilməyəcəm. Halbuki həmin vaxt mən xaricdə olmuşam.

Azərbaycana gələndən sonra bilmişəm ki, 4900 manat aliment borcum yığılıb. Boşanmadan xəbərim olmadığı üçün ailəmin dolanması üçün yoldaşımın, onun dayısının oğlunun və bacanağımın adına pullar göndərmişəm. İcra məmuru isə sənədlərdə qeyd edir ki, guya məni məcburi çağırıblar.

Mən öz istəyimlə ölkəyə gəlmişəm. Azərbaycana gələndən 1 ay sonra İmişli Rayon Məhkəməsi məni həbs edib və qanunsuz olaraq 15 gün içəridə saxlayıblar.

Onu da qeyd edim ki, keçmiş yoldaşım Gülnarə, qardaşı Ağazadə Vüsal, xalası oğlu Quliyev Vüqar, dayısının yeznəsi Hacıyev Elşən xəbərim olmadan mənə məxsus mal-qaranı İmişli rayon mal bazarında satıblar. Xalsı oğlu Vüqar bunu mənə notarial qaydada sübut edib. Mənə məxsus mal-qaranı satıb, özlərinə Bakı şəhərində ev alıblar.

Həyatım demək olar ki, təhlükədədir. Xəbərim olmadan başıma oyun açıblar. Bu yazdıqlarım onların mənə etdiyi qanunsuzluqların yalnız bir faizidir. Sizin sayt vasitəsilə, başda Ədliyyə naziri Fərid Əhmədov olmaqla, səlahiyyətli qurumlara müraciət edirəm. İcra məmurları açıq-aşkar reketçiliklə məşğuldurlar, tədbir görün".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Qəza törədən sürücü 2 aydır "qeybə çəkilib"

## Sərnişini ağır vəziyyətdə xəstəxanaya çatdırıb, daha sonra aradan çıxıb...



**Bakı şəhər sakini Quliyev Nurlan Fitatxan oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Hərbi prokuror, ədliyyə general-mayoru Əhmədov Bəhruz Vidadi oğluna müraciət edir:**

**"Cənab Bəhruz Əhmədov!**

Mən, Quliyev Nurlan Fitatxan oğlu, yazaraq bildirirəm ki, sentyabrın 1-də 63 yaşlı atam Quliyev Fitatxan Savad oğlu Abşeronun Pirəkəşkül kəndi ərazisində maşınla vurulub.

Bildirim ki, atam "ayıq sürücü" olaraq müştərini ünvana aparıb. Maşından düşəndən sonra isə onu başqa bir avtomobil vurub. Vuran şəxs öz maşını ilə atamı Pirəkəşkül Xəstəxanasına qoyub. Həmin gündən qəza törədən şəxs haqqında məlumatsız qalmışıq.



Həkimlər xəstənin vəziyyətini ağır olduğunu görüb, 1 saylı Kliniki Tibbi Mərkəzə ("Semaşko") göndəriblər. Atam ciddi zərbələr alıb. Amma hələ də vuran şəxs tapılmır. Az da olsa, məlumatları toplamışıq və bütün sübutlar prokurorluğa təqdim olunub.

Hazırda atamın müalicəsi üçün yüksək məbləğ tələb olunur. Qəzanı törədən şəxs isə 63 yaşlı yaşlı adamı şikəst qoyub gedib, evində rahat yaşayır.

Onu da qeyd edim ki, qəza törədən şəxs hərbi hissədə işləyir. Onun haqqında əldə etdiyim bütün məlumatları bu yaxınlarda paylaşacam. Mənə dəyən zərər bu günə kimi ödənilməyib. Atamı ölümə tərk edən şəxs haqqında heç bir tədbir görülmür.

Mən Sizdən xahiş edirəm, tapşırıq verin, bu şəxsin kimliyi öyrənilib, məsuliyyətə cəlb olunsun".

**Jalə FAMİLQIZI**

# Dünya rəsmən ikiqütblü oldu...

## Trampın "xox" siyasətini Çin lideri ABŞ-ın özünə qarşı işə saldı




**Uzun müddətdir gözlənilən ABŞ-Çin görüşü Cənubi Koreyada baş tutdu. Bu görüş son bir neçə ildə yarı qapalı şəkildə gedən çox önəmli prosesi konkretləşdirdi: ABŞ dünyanın tək hegemon gücü statusunu itirib. Koreya sammitindən əldə olunan nəticələr və yayılan görüntülər bu deyiləni təsdiqləyir.**

Öncə görüntülərə nəzər yetirək. Tramp podiumda gah sağa, gah sola baxaraq döyükür, Çin liderini gözləyir. Si Cinpin isə podiuma Trampdan sonra inamlı addımlarla gəlir, gücünə tam əminlik nümayiş etdirir. Si ilə görüşdə digər ölkələrin liderlərinə yuxarıdan aşağı baxan, onları alçaldan Trampdan əsər-əlamət yoxdur. Sammit bitdikdən sonra isə Tramp pilləkənlərdən enərək Çin liderini onun limuzininə qədər yola salır, sonra səssiz-bəyanatsız öz limuzininə minib birbaşa hava limanına yollandı.

Bu sammitin mahiyyətini Çin Kommunist Partiyasının ruporu olan "Jenmin Jibao" qəzetində dərc olunmuş məqalədən götürülmüş iki cümlə ilə ifadə etmək olar. Birinci cümlədə qeyd edilir ki, Si Cinpin Trampa deyir: "Çinin böyüməsi və inkişaf etməsi sizin MAGA (Amerikanı yenidən böyük edək) layihənizə zidd deyil."

İkinci cümlədə isə deyilir: "Sammit bitdikdən sonra prezident Tramp hamını təəccübləndirərək pilləkənlərdən endi və Çin rəhbərini limuzinə qədər ötürdü."

Bu iki cümləni diplomatik dildən "obıvatel" dilinə çevirək.

Birinci cümlədə Si deyir: Siz MAGA ilə məşğul olun, dünyadan çəkilin, diqqətinizi daxili problemlərinizə yönəldin. Biz isə bütün dünyada təsirimizi artıracağıq, bizə mane olmayın.

Qəzetdəki ikinci cümlə isə hansı ölkənin daha güclü və hansı liderin daha təsirli olduğunun altını cızır.

Rəsmi görüşlərdə daha güclü ölkələrin liderləri tez-tez öz üstünlüklərini nümayiş etdirən diplomatik jestlər edirlər. Məsələn, Trampın Zelenski və ya çox sayda Avropa lideri ilə Ağ Evdəki görüşünü yada salaq. Avropa dövlətlərinin liderlərini məktəb şagirdləri kimi qarşısındakı kiçik stullarda bir cərgədə oturdan Tramp onlara böyük kürsüdən yuxarıdan aşağı baxırdı. ABŞ-Çin sammitində isə Tramp gözlənilmədən pilləkənlərdən düşür və Çin liderini limuzinə qədər ötürür.

Mahiyyət baxımından da bu görüş olduqca uğursuzdur. 4-5 saat civarında gözlənilən görüş cəmi 100 dəqiqə sürdü. Onun da ən azı əlli dəqiqəsini təqdimatlar və tərcümə proseduru "yedi". Belə qısa zamanda iki dünya lideri hansı ciddi məsələni həll edə bilərdi ki?

Sammitin əsas nəticəsi tərəflərin bir-birilərinə ünvanladıqları "xox"lardan geri çəkilmələri oldu. Tramp Çini bir neçə yüz faiz gömrük rüsumu və çip satışını qadağan etməklə hədələyirdi. Çin isə ABŞ-a nadir torpaq metallarını satmayacağı ilə "xox" gəlirdi. Görüşdülər, danışdılar və hər ikisi irəli sürdükləri



təhdidlərdən vaz keçdilər.

İlk baxışdan elə görünə bilər ki, burada qeyri-adi heç nə yoxdur: bir-birini təhdid etdilər və qarşılıqlı şəkildə təhdidlərindən vaz keçdilər. Əslində isə bu görüş bu günə qədər müşahidə olunmamış yeni nəticə ortaya çıxardı. İndiyə qədər heç bir dövlət Birləşmiş Ştatları təhdid edərək ondan nəyisə ala bilməmişdi. Qarşısındakı dövləti təhdid etmək və ondan ciddi güzəştlər qoparmaq yalnız ABŞ-nin və Trampın edə biləcəyi üstün davranış idi.

Tramp ən ölçüsüz təhdidlər irəli sürərək körfəzin ərəb dövlətlərindən trilyonlarla dollarlıq investisiya, Avropadan Amerikanın tam xeyrinə olan ticarət anlaşması, Yaponiyadan isə ABŞ iqtisadiyyatına 500 milyard dollarlıq yatırım vədi qopara bilmişdi. İndi həmin oyunu Trampa qarşı Si Cinpin oynadı. Üstəlik, Çin liderinin nadir metallar təhdidi Trampın rüsum və çip təhdidindən daha əvvəl irəli sürüldü. Çin ABŞ-nin "xox" oyununu mənimsədi, Birləşmiş Ştatların özünə qarşı yönəltdi və Ağ Evə qarşı, şahmat terminologiyası ilə desək, şah elan etdi. Və bu güclü gedişin qarşılığında Ağ Evin heç-heçə təklif etməkdən başqa yolu qalmadı.

Sual yaranır: Nə üçün digər dövlətlərə qarşı Trampın "xox"u işə yaradı, Çinə çatanda isə divara çırpıldı?

Burada söhbət digər liderlərin cəsarətsiz və ya risksiz olmasından getmir. Liderlərin davranışını müəyyən edən əsas faktor rəhbərlik etdikləri dövlətlərin gücüdür. Çin tarixində ilk dəfə olaraq ABŞ-yə dişini göstərdi və Ağ Evi yerində oturtdu.

Bu bir qırılma nöqtəsidir. Bu gündən sonra ABŞ-nin Çinə qarşı hər hansı təhdidi keçərli deyil. Çinin nadir torpaq metalları təhdidindən və ABŞ-nin bu təhdid qarşısında geri çəkilməsindən sonra dünya rəsmən ikiqütblü oldu.

**Namiq BİLAL**

# Avropa Komissiyası bu bazarlara nəzarəti sərtləşdirir

**Avropa Komissiyası Avropa İttifaqının (Aİ) maliyyə infrastrukturuna, o cümlədən fond birjalarına, kriptovalyuta platformalarına və klirinq palatalarına nəzarəti genişləndirməyi planlaşdırır.**

Bu barədə "Financial Times" nəşri Avropa Komissiyasındakı mənbələrə istinadla məlumat yayıb.

Yeni təşəbbüsün məqsədi - Aİ-nin vahid bazarında parçalanmanı aradan qaldırmaq, sərhədlərarası ticarət xərclərini azaltmaq və bununla da Avropada startapların və şirkətlərin inkişafını sürətləndirməkdir. Bu, Avropa İttifaqının ABŞ ilə iqtisadi rəqabətdə mövqeyini gücləndirmək strategiyasının bir hissəsi kimi qiymətləndirilir.

Komissiyada hesab edilir ki, ABŞ Qiymətli Kağızlar və Birjalar Komissiyasına (SEC) bənzər vahid nəzarət orqanının yaradılması, Avropa kapital bazarları ittifaqının formalaşmasında mühüm addım olacaq. Brüsselin dekabr ayında "bazarların inteqrasiyası paketi" adlı yeni qanunvericilik təkliflərini təqdim etməsi gözlənilir.

Təklifə əsasən, Avropa Qiymətli Kağızlar və Bazarlar İdarəsinin (ESMA) səlahiyyətləri xeyli genişləndiriləcək. Qurumun milli tənzimləyicilər və iri aktiv idarəçiləri arasındakı mübahisələr üzrə məcburi qərarlar qəbul etmək, həmçinin transsərhəd fəaliyyət göstərən təşkilatlara və kriptoaktiv xidmət təminatçılarına birbaşa nəzarət etmək səlahiyyəti olacaq. Bu, faktiki olaraq, Avropada kriptovalyuta bazarına mərkəzləşdirilmiş nəzarətin tətbiqi deməkdir.

Bununla belə, Avropa Komissiyasının təşəbbüsünə İrlandiya və Lüksemburq qarşı çıxır. Lüksemburqun maliyyə naziri Jil Rot bildirib ki, təklif olunan mərkəzləşdirilmiş model baha başa gələcək və effektiv işləməyəcək. Qeyd edək ki, məhz Lüksemburq bu ilin oktyabrında Avrozonada kriptovalyutaya sərmayə qoyan ilk ölkə olub. Ölkənin Nəsillərarası Suveren Rifah Fondu aktivlərinin 1 faizini bitkoinə yatırıb.

Ekspertlər hesab edirlər ki, Avropa Komissiyasının bu addımı ABŞ-nin SEC və CFTC kimi güclü maliyyə tənzimləyicilərinə cavab xarakteri daşıyır. Rəqəmsal aktivlər bazarında ABŞ-nin üstünlüyü, Avropada isə tənzimləyici parçalanma fonunda ESMA-nın mərkəzləşdirilməsi Avropa kapital bazarını rəqabətədavamlı etmək üçün zəruridir.

Lakin kiçik ölkələr - xüsusən də Lüksemburq və İrlandiya maliyyə sektorunda Brüsselin dominant rolundan narahatdırlar və bu islahatın milli suverenlik elementlərini zəiflədəcəyini bildirirlər.



# Trampın iddiası beynəlxalq gərginlik yaratdı

## "ABŞ-ın dünyanı 150 dəfə partlatmağa yetəcək qədər nüvə silahı var"

**"ABŞ-nin dünyanı 150 dəfə məhv etməyə yetəcək qədər nüvə silahı ehtiyatı var". ABŞ Prezidenti Donald Tramp bu barədə "CBS News" telekanalına verdiyi müsahibəsində bildirib.**

O deyib ki, ABŞ nüvə potensialına görə dünyanın digər dövlətlərini geridə qoyur, lakin bu gücün məsuliyyətli şəkildə idarə olunması zəruridir.

"Bizim digər ölkələrdən daha çox nüvə silahımız var. Denuklearizasiya istiqamətində ciddi addımlar atmaq lazımdır. Amma eyni zamanda, ABŞ nüvə sınaqları keçirməyən yeganə dövlət kimi qalmamalıdır", - Tramp vurğulayıb.

O, bu məsələni Çin lideri Si Cinpin və Rusiya Prezidenti Vladimir Putinlə də müzakirə etdiyini qeyd edib.

"Bizim dünyanı 150 dəfə partlatmağa kifayət edəcək qədər nüvə silahımız var. Rusiyanın da çoxlu silahı mövcuddur, Çin isə yaxın illərdə bu potensiala çatacaq", - Tramp əlavə edib.

Tramp onu da qeyd edib ki, ABŞ-ın təhlükəsizlik maraqları baxımından nüvə sınaqlarının tam dayandırılması məqsədəuyğun deyil. Onun sözlərinə görə, əgər digər ölkələr bu sahədə fəaliyyət göstərirsə, Vaşinqton da öz texnoloji üstünlüyünü qorumaq üçün adekvat addımlar atmalıdır.

Qeyd edək ki, Donald Trampın Rusiya və Çinin gizli nüvə silahı sınaqları keçirdiyi barədə iddiası beynəlxalq miqyasda qalmaqala səbəb olub.

Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Nin bu iddiaları sərt şəkildə təkzib edərək, "Çin sülh yolu ilə inkişaf siyasətindən heç vaxt dönməyib" açıqlamasını yayıb.

"Çin hər zaman sülh yolu ilə inkişaf siyasətini izləyib, nüvə silahlarını ilk istifadə etməmək prinsipinə sadiq qalıb və müdafiə xarakterli nüvə strategiyasını davam etdirib. Eyni zamanda nüvə sınaqlarını dayandırmaq öhdəliyinə sadiqdir", - deyə Mao vurğulayıb.

Xatırladaq ki, Donald Tramp "CBS News" telekanalında yayımlanan "60 Minutes" proqramında çıxışı zamanı "Rusiya sınaq keçirir, Çin də keçir, amma bu barədə danışmırlar" deyərək, hər iki ölkəni gizli nüvə silahı testləri aparmaqda ittiham etmişdi.



# Evlərini, Novxanıdakı villasını, avtomobillərini satdı

## 3 milyonu ödəmək Elton Məmmədova heç də asan olmayıb...

**Adı son günlər Ramiz Mehdiyev işində və AMEA-da 3 milyonluq cinayətdə hallanan keçmiş deputat, hazırda AMEA-nın Sosial Xidmətlər Şöbəsinin müdiri olan Elton Məmmədov ətrafında söz-söhbət bitmir.**

Bundan öncə Baş Prokurorluğun yaydığı rəsmi xəbərdə Elton Məmmədovun vurduğu 3 milyon manatın onun tərəfindən ödənildiyi barədə məlumat verilmişdi.

Oxu24.com xəbər verir ki, Elton Məmmədov qeyd olunan pulu ödəmək üçün olan-qalan hər şeyini satıb. 3 milyonu ödəmək Elton Məmmədova heç də asan olmayıb.

Belə ki, o, Novxanı qəsəbəsindəki dəbdəbəli bağ evini, 3 ədəd son model avtomobili, "20 Yanvar" metrosu ətrafında yerləşən kafesini, "MAİN" Yaşayış Kompleksində beş ədəd 2 və 3 otaqlı mənzilləri, böyük sahəyə malik avtoqarajı, Həsən Əliyev küçəsində - keçmiş "Tramvay Parkı"nın yerində yerləşən özünəməxsus şirkətin inşa etdiyi hündürmərtəbəli binadakı iki mənzili dəyər-dəyməzinə satıb.

Xatırladaq ki, Elton Məmmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşıdır. Qardaşların ikisi də dövlətə xəyanət və başqa ağır cinayətlərdə ittiham olunan Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın keçmiş prezidenti Ramiz Mehdiyevin sadiq adamları olduğu bildirilir.

# Elarizin kürəkəninə 10 il iş verildi



**Sahibkar tanışlarına internet platforması üzərindən əlavə gəlir əldə etmək vədi verib onların 4 milyon manatını ələ keçirməkdə ittiham olunan birjaçı Nizami Alışanın məhkəməsi başa çatıb.**

Hurriyyet.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən son iclasda hökm oxunub.

Aytən Əliyevanın sədrlik etdiyi hakimlər kollegiyası təqsirləndirilən şəxsə verilmiş xüsusilə külli miqdarda dələduzluq ittihamının məhkəmədə təsdiqini tapdığını bəyan ediblər.

Hökmə əsasən, Nizami Alışana 10 il müddətinə həbs cəzası verilib. Bundan əlavə, birjaçı pullarını batırdığı zərərçəkmişlərdən biri - Babək Məmmədzadəyə dəymiş maddi ziyanı da ödəməli olacaq.

Nizami isə son sözündə yenə zərərçəkmiş kimi tanınan Babək Məmmədzadənin adını çəkib. Babəkin qoyduğu puldan qat-qat çox qazandığını deyib. Birjaçı Babəkin atasının da bir vaxtlar böyük yeyinti ilə məhkum edildiyini xatırladaraq indi isə oğlunun özünü zərərçəkmiş kimi təqdim edib onun üstünə gəldiyini bildirib.

Qeyd edək ki, Nizami Alışan Daxili İşlər Nazirliyinin (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb edilib.

Artıq pul qazanmaq üçün pul verib sonradan şikayətçi olanlar isə Nərimanov rayon prokurorunun keçmiş müavini Zeynal Usubov, "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədovun oğlu Babək Məmmədzadə və başqa iş adamı Yadigar İsrafilovdur.

Nizami Alışan isə AzTV-nin keçmiş sədri Arif Alışanovun qardaşı oğlu, müğənni Elarizin kürəkənidir.

# Unudulmaz səslər

## Məmmədbağır Bağırzadə - 75

**Milli musiqilərdən, xalq mahnıları ruhunda yazılmış əsərlərdən və ifaçılıq sənətindən söz açanda ilk yada düşən sənətkarlardan biri Məmmədbağır Bağırzadə olur. Onun musiqisi yalnız toyların bəzəyi deyildi, o, bayramların, böyük mədəni anların ayrılmaz parçasına çevrilmişdi. O səsin sahibi bizi lap uşaqlıqdan öz sehri ilə ovsunlamışdı. Unudulmaz çağlarımızın ən gözəl sənətkarını elə o illərdən sevməyə başlamışdıq. Onun musiqisi bizə təkcə xoş anlar bəxş etmirdi, həm də zövqümüzü formalaşdırır, milli ruhumuzu cilalayırdı.**



Məmmədbağır Bağırzadə milli muğamın və musiqi ənənəsinin qoruyucusu olmaqla yanaşı, həm də koloritli mahnılar yaradan, ürəyi səhnə üçün döyünən bir sənətkar idi. Onun ecazkar səsi Azərbaycan tarixini, yaddaşını, özündə əxz edirdi. Hər bir əsərinin ruhu doğma torpağın minillik yaddaşından qidalanırdı. Onun ifalarında təbiətin saf və duru ahəngi duyulurdu - sanki hər bir səs titrəyişində bu torpağın nəfəsi vardı.

M.Bağırzadənin ecazkar səsi təkcə melodiyalarla deyil, Azərbaycan tarixinin, yaddaşının özü ilə yoğrulmuşdu. Hər bir əsərinin mayası elə bu torpaqdan, bu xalqın minillik duyğularından götürülmüşdü. Onun ifalarında bulaq kimi çağlayan, şəffaf suların duruluğu vardı - sanki hər notla musiqinin öz gözəlliyini süzürdü. O, mədəniyyətimizi, incəsənətimizi təkcə güclü səsi ilə deyil, yüksək mədəniyyəti, dərin düşüncəsi ilə də təmsil edirdi. Onu yaşadan isə yalnız sənəti deyil, xalqın ona bəslədiyi sonsuz məhəbbət idi.

Məmmədbağır Bağırzadənin mahnıları tək Azərbaycanda deyil, bütün Şərq dünyasında öz yerini tapmışdı. Onun melodiyaları bir sərhəd tanımırdı-hara gedirdiksə, səsi bizi müşayiət edir, ruhumuzu oxşayırdı. Elə indinin özündə də belədir.

Onun hər ifasında hər kəs öz həyatından bir parça tapır-kimi uşaqlıq xatirələrini, kimi gənclik çağlarını, kimi də cavanlığının sevinclərini. Çünki Məmmədbağır Bağırzadə elə sənətkar idi ki, onun mahnıları həyatın bütün duyğularını əks etdirirdi.

O, sadəcə bir müğənni deyildi-onun səsi xalqın doğmalıqla qucaqladığı bir yadigar idi. İstər toylarda, istər dövlət tədbirlərində, istərsə də televiziya ekranlarında nə oxumağı, necə oxumağı çox yaxşı bilirdi. Bəzən başqa bəstəkarların mahnılarını oxusa da, buna ehtiyacı yox idi. Çünki özünün gözəl mahnılar bəstələmək qabiliyyəti vardı. Bir çox peşəkar bəstəkarın mahnıları zamanla unudulsa da, Məmmədbağır Bağırzadənin 30-40 il əvvəl bəstələdiyi mahnılar bu gün də sevilir, bu gün də aktualdır.

Bu gün Azərbaycan mədəniyyətini və incəsənətini Məmmədbağır Bağırzadənin musiqiləri olmadan təsəvvür etmək mümkün deyil. Onun melodiyaları təkcə bir dövrün deyil, bütöv bir ənənənin davamı kimi yaşayır. O, xalqın yaddaşında, könlündə silinməz iz buraxmış sənətkarlardan biridir.

Öz dövrünün yetirmələri də, indiki gənc nəsil də onun möhtəşəm musiqilərini sevir. O, muğamı da, retro bəstəkar mahnılarını da özünəməxsusluqla təqdim edirdinə oxuyurdusa, onu özününküləşdirirdi. Hər ifasında öz üslubunu ortaya qoyur, xalqına doğma və unikal bir musiqi irsi ötürürdü.

Sənətkarı ən güclü edən onun tamaşaçıları ilə dil tapması idi. Məmmədbağır Bağırzadə bunu mükəmməl bacarırdı-uşaqla uşaq, böyüklə böyüklük edirdi. Xalqla onun arasında sınmaz bir dostluq körpüsü vardı və bu körpünü özü yaratmışdı. Elə ona görə də bu körpü zaman keçsə də, sınmır, qırılmır.

Məmmədbağır Bağırzadənin incə yumoru və parodiya bacarığı onu səhnədə daha da unikal edirdi. O, təkcə musiqiçi deyil, həm də tamaşaçılarını güldürməyi, onları öz sənət dünyasına çəkməyi bacaran bir sənətkar idi. Onun zarafatları, səhnədəki doğmalığı və improvizasiya qabiliyyəti onu xalqın yaddaşında silinməz izlər saxladı. Bu barədə onun ustadı, dahi Xalq artisti, ölməz Əlibaba Məmmədov öz tələbəsi Məmmədbağır Bağırzadə haqqında belə söyləyirdi:

"Məmmədbağır Bağırzadə məni demək olar ki, cavanlaşdırdı, apardı o günlərə. Çox cavan idi, əsgərlikdən təzə gəlmişdi. Mən onu bizim ansambla-"Humayun" ansamblına dəvət etdim. Dedim ki, ■Məmmədbağır, səni "Humayun" ansamblına dəvət etsəm, gələrsən?' Dedi, "mən fəxr edərəm "Humayun" ansamblında işləməklə. "İki il "Humayun"da işlədi. Mən onda elə istedadlar gördüm ki, hələ o cür istedad mənim rastıma gəlmir".

**Fuad BİLƏSUVARLI**

***P.S. Yaşasaydı, bu il Məmmədbağır Bağırzadənin 75 yaşını qeyd edəcəydik. Amma nə yazıq ki, tale ona vəfa qılmadı. Lakin bir şey dəqiqdir: hər dövrdə, hər əsrdə Məmmədbağır Bağırzadənin səsi vəfalı dinləyicilərinin, sadiq tamaşaçılarının könlündə yaşayacaq.***

***P.S.S. Bu günlərdə çox sevindrici xəbər də eşitdik. Məmmədbağır Bağırzadənin doğulduğu Nardaran kəndindəki küçələrdən birinə onun adı verilib. Həmin küçədə 99 ev yerləşir.***





# Əfqanıstan heroini uğrunda böyük savaş

## "Qəhrəmanlıq maddəsi"nə nəzarət hazırda kimin əlindədir?

Son illərədək Əfqanıstan "imperiyaların qəbiristanlığı" adlandırılırdı. ABŞ-ın bu ölkəni diplomatik tərzdə tərk etməsindən sonra, insanların çoxu "Taliban" burada hakimiyyətə gəldikdən sonra yenə də bu fikri bölüşməkdədir.

Son onilliklər ərzində dünya əfqanların nəinki partizan müharibəsində, hətta tiryək istehsalında və emalında da uğur qazandıqlarını öyrəndi. Heç də təsadüf deyil ki, hazırda beynəlxalq narkotik bazarında dövr edən heroinin böyük əksəriyyəti Əfqanıstan mənşəlidir.

Bəllidir ki, son illərə qədər "Taliban" hərəkatı narkotik istehsalına nəzarət edir, bu sahəni inkişaf etdirirdi. Hakimiyyətə gəldikdən sonra isə bu gəlirli işi durdurmağa hazır olduğunu bəyan etdi. Amma bu, ilk gündən inandırıcı görünmürdü. Çoxları düşünürdü ki, Əfqanıstanın yeni hökuməti həqiqətənmi özü üçün bu qədər əhəmiyyətli gəlir mənbəyini bağlamağa hazırdırmı? Və yaxud ABŞ son 20 il ərzində yerli narkotik biznesini məğlub edə bilmədi, yoxsa etmək istəmədi?

Bu suallara cavab axtarmazdan öncə qeyd edək ki, 20-ci əsrdə ABŞ-ın dünya siyasi məkanında Böyük Britaniyanın yerini tutduğunu düşünsək, 19-cu əsrin sonlarında Rusiya və Britaniya arasında "Böyük oyun"a ev sahibliyi etmiş Əfqanıstanın bu gün də böyük oyunlara səhnə olduğunu və olacağını görməkdəyik. Məsələyə bir neçə bucaqdan baxa bilərik. "Heroin" sözü, 19-cu əsrin sonunda Alman Bayer firması tərəfindən öskürək dərmanı olaraq istehsal edilən



"Diasetilmorfin"in ticari adıdır. Dərman o qədər güclü eyforiya yaradırdı idi ki, ona "qəhrəmanlıq maddəsi" adı verildi. Əlbəttə, narkotik maddə istifadəsinə indi yox, əsrlər əvvəl başlanılmışdı. Səbəb isə əsgərlərin döyüş qabiliyyətini pik həddə çatdırmaq idi. Bu, bəşəriyyətə məlum olan ən qorxunc dərmanlardan biridir.

Narkotik istehsalı üçün əsas xammal olan tiryək, xaşxaş sahələri əsasən ölkənin cənub hissəsində, "Taliban" döyüşçülərinin illər öncədən də ən böyük təsirə malik olduğu əyalətlərdə yerləşir. Hansı ki, narkosənaye də onların himayəsi altında inkişaf etdi.

2017-ci ildə Əfqanıstan heroin biznesinin ümumi dövriyyəsi BMT tərəfindən rekord həddində - 6,6 milyard dollar olaraq qiymətləndirildi. Üstəlik, mütəxəssislərin hesablamasına əsasaən, həmin il 400 min insan tiryək istehsalı və emalı ilə məşğul idi. Bu, keçmiş Əfqanıstan İslam Respublikasının bütün hökumət ordusundan çox idi.

BMT-nin məlumatına görə, 2018-ci ildə narkotiklərin qanunsuz dövriyyəsi ölkənin ÜDM-nin 11 % -ə qədərini təşkil edirdi və 2021-ci ilin avqustunda ölkədə hakimiyyəti ələ keçirən "Taliban" gözlənilmədən iddialı açıqlama ilə çıxış etdi: "Heroin sənayesinə son qoyuruq. Vətəndaşlarımızı, kişiləri və qadınları və beynəlxalq ictimaiyyəti narkotik istehsalına icazə verməyəcəyimizə əmin edirik. Bundan sonra heç kim heroin alveri ilə məşğul olmayacaq".

Lakin kimsədə şübhə yoxdur ki, "Taliban"ın Əfqanıstanda hakimiyyəti ələ keçirməsində heroin gəlirləri çox mühüm rol oynadı. Amma nəzərə almaq lazımdır ki, nəyisə əkib-becərmək, məhsul götürüb onu bazarda reallaşdırmaq üçün partizan yox, oturaq, yaxud dinc həyat tərzi sürmək gərəkdir. Ən azı qismən. Bəs, partizan həyat tərzi sürən "Taliban" bu işə illər boyu necə nəzarət etdi? ABŞ-ın hərbi kontingentinə rəhbərlik edən şəxslərin bundan xəbərsiz olması qeyri-mümkündür və bu, baş veribsə, demək "icazə verilib". Yəqin ki, ABŞ-ın "Taliban"la işi də məhz bu sahədəki ortaqlıq üzərində yürüdülüb.

Məlumatlara görə, Əfqanıstanın zəngin minerallarının ölkədən icazəsiz çıxarılmasına nəzarət edən taliblər bütün ticarət və nəqliyyat yollarından vergi tuturdular. Ancaq zəif texnologiyalar resursların satışından yüksək gəlir əldə etməyi çətinliklə təmin edirdi və Əfqanıstanın praktiki olaraq yoxsul əhalisindən alınan rüsumlar da çoxgəlirli bir iş deyildi. Bəzi ingilis mütəxəssislərinin fikrincə, silahlıların əksəriyyəti hələ də qanuni mallardan - yanacaq, tütün və digər resurslardan alınan vergilərdən pul qazanır. ABŞ-ın Əfqanıstan üzrə keçmiş xüsusi müfəttişi Con Sopkonun sözlərinə görə



isə, "Taliban" gəlirinin 60 %-ə qədərini məhz heroin ticarətindən əldə edir.

BMT-nin məlumatına görə, 2021-ci ilədək yaraqlıların narkotik biznesindən əldə etdiyi illik xalis mənfəət ən azı 400 milyon dollardır. Bunun əhəmiyyətli bir hissəsi Avropaya narkotik gətirən qaçaqmalçılara aiddir: Rusiyaya, oradan Orta Asiya ölkələrinə, Türkiyə və Balkan ölkələrindən isə Avropayag

Ölkədə amerikalı əsgərlər peyda olandan və taliblər xaşxaş tarlalarına nəzarət edən əsas qrupa çevrildikdən sonra istehsalın həcmi xeyli artdı. Məsələn, 1990-cı illərin ortalarında Əfqanıstanda təxminən 50 min hektar tiryək plantasiyası becərilirdi. On il sonra, 2005-ci ildə tiryək sahəsi iki dəfə artaraq 100 min hektardan çox, növbəti səkkiz il ərzində - 2013-cü ilə qədər isə yenidən iki dəfə artdı.

Məntiqi mühakimə etsək, ABŞ qoşunlarının ölkəni zəbt etməsindən sonra narkoistehsalın artması o deməkdir ki, bu artım məhz yabançı hərbi kontingentin marağında idi, yəni ABŞ və taliblərin maraqları düz mütənasib olub. Çünki bunun əksi narkoistehsalın artımına gətirməzdi. Sadəcə, ABŞ-ın rəsmi "üzü"nün Əfqanıstanın legitim hökuməti ilə əməkdaşlığının da taliblərlə müttəfiqliyə mane olduğunu düşünmək sadəlövhlük olardı. Yəni ABŞ hər zamankı kimi "ikili" oynayıb. Əfqanıstanda işğalını pərdələmək üçün amerikanlara rəsmi hökumətlə əməkdaşlıq lazım idi. Yəni işğalçı kimi görünməsin deyə. Qeyri-qanuni, dəftərkitabsız, dövriyyədən kənar narkoticarəti isə "Taliban"la yürütmək ideal "əməkdaşlıq" idi. Çünki terror təşkilatlarının nə vergi qeydləri, nə rəsmi ticarət dövriyyəsi qeydləri olmur. ABŞ-ın bu ölkəyə "narkotrafiki çökdürmək" üçün gəlməsinə dair illərdir təbliğat maşının dünyaya sırıdığı demiokratiya nağılları da sadəcə "sabun köpüyü" idi.

**Hazırladı: Ü.ŞÜKÜROVA**